## CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA: "STRATFOR"UN RİSKLƏRLƏ DOLU PROQNOZLARI

Amerikanın "Stratfor" qlobal strateji təhlil mərkəzi 2019-cu il üçün Cənubi Qafqaz və Mərkəzi Asiya ilə bağlı proqnozlar verib. Onlara nəzər saldıqda, bir sıra düşündürücü məqamları görmək mümkün olur. Hər şeydən öncə, aydın olur ki, bu iki regionda cərəyan edən geosiyasi proseslər bir-biri ilə əlaqədə götürülür. Ekspertlər hesab edirlər ki, hər iki region üçün 2019-cu il geosiyasi aspektdə mürəkkəb il olacaq. Burada qeyri-müəyyənliklər və risklər özünü göstərəcək. Dünyanın böyük gücləri olan ABŞ, Rusiya və Çinin...




Bax səh. 3

## ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ DAVAMLI TƏDBİRLƏR GÖRÜLÜR

Məlumdur ki, sosial dövlət olan Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində məhz ölkə vətəndaşı dayanır. Son 15 ildə davamlı olaraq atılan addımlar, görülən tədbirlər aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin və əlilliyi olan şəxslərin sosial rifahının yüksəldilməsində əsaslı rol oynayıb. Prezident İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzaladığı Fərman və sərəncamlar...



Bax səh. 4




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 09 yanvar 2019-cu il, çərşənbə / № 004 (5379). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib



***Prezident İlham Əliyev:*** *Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

### *Elçin Mirzəbəyli:* Karaqandada baş verən son hadisə erməni millətçiliyinin simasının dəyişmədiyini sübut edir

Ermənilərin Qazaxıstanın Karaqanda şəhərində qazax millətinə mənsub olan bir nəfəri etnik zəmində öldürmələri, üç nəfərə isə ağır bədən xəsarətləri yetirmələri bir daha onların şüurunda kök salmış radikal millətçiliyin, faşizm ideologiyasının nə qədər təhlükəli olduğunu nümayiş etdirir. Şübhəsiz ki, Qazaxıstanda baş verən cinayət erməni millətçilərinin Azərbaycan-Qazaxıstan münasibətlərinə, rəsmi Astananın Aprel döyüşlərindən sonra, həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı...

Bax səh. 5

### Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm addımlar atılır



...Yeniliklər sırasında bu yaxınlarda istifadəyə verilən gecə klubu da var. Turistlər xizək sürmənin yorğunluğunu burada əylənməklə çıxara bilərlər. Bu, eyni zamanda, xizək sürməyən qonaqlar üçün ideal əyləncə mərkəzidir...

Bax səh. 8

### Qoca və ağılsız Peykkonun şarlatanlığı...

Antimilli şəbəkənin və onun xaricdəki havadarlarının son günlər həbsdə olan Mehman Hüseynovla bağlı Azərbaycana qarşı həyata keçirdiyi qarayaxma kampaniyasının detalları və məqsədləri ölkəmizin ictimai-siyasi gündəmini az-çox izləyən hər kəs üçün bəllidir. Bu tip proseslər həmişə eyni ssenari üzrə baş verir. Əvvəlcə bir diletant müəyyənləşdirilir, onun guya hansısa haqsızlığa qarşı müqavimət göstərən, buna görə də ciddi təzyiqlərə məruz qalan dissident obrazı yönündə ictimai rəy formalaşdırmağa çalışılır, bir barmaq toxunuşu ilə...

Bax səh. 7



## "ERMƏNİ XALQININ SƏFALƏTDƏN XİLAS OLMASI MÜNAQİŞƏNİN TEZLİKLƏ HƏLLİNDƏN ASILIDIR"

...2018-ci il Azərbaycan tarixinə növbəti bir uğurlu il kimi daxil oldu, həm iqtisadi, həm də siyasi sahədə böyük nailiyyətlər əldə edildi. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli...

Bax səh. 3

## RADİKAL ÜNSÜRLƏRİN MEHMAN HÜSEYNOVA "DƏSTƏK" KAMPANİYASI ONLARIN ƏSL MƏQSƏDLƏRİNİ ÜZƏ ÇIXARDI

*Yaxud, Avropada mitinqlərin dağıdılması, jurnalistlərin həbsi, insan haqlarının pozulması faktlarını görməzdən gələn bəzi beynəlxalq qurumlar və hüquq müdafiə təşkilatları Azərbaycanda kiçik bir hadisəni qərəzli şəkildə qabardır, ona siyasi rəng verirlər*

Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı güclü, dünyada böyük nüfuza malik, öz milli maraqlarını müdafiə etməyi bacaran dövlət quruculuğunu başlıca vəzifə hesab edir və bu istiqamətdə ardıcıl, prinsipial siyasət həyata keçirir. Demokratik prinsiplərə sədaqət, insan hüquq və azadlıqlarına hörmət ölkəmizdə vətəndaş həmrəyliyinin daha da güclənməsinə yol açır. O da bəllidir ki, Azərbaycanın inkişafı, ildən-ilə güclənməsi, müstəqil xarici siyasət kursu yürütməsi hər zaman antimilli mərkəzləri, anti-azərbaycançı dairələri narahat edir. Odur ki, həmin dairələr zaman-zaman...

Bax səh. 6



## MƏHKƏMƏ FƏALİYYƏTİNƏ DAİR QANUNVERİCİLİYİN YENİ MÜDDƏALARI ÖYRƏNİLİR

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, işlərə daha çevik və keyfiyyətlə...

Bax səh. 4

### Hesablama Palatasında nəzarət tədbirləri üzrə analitik arayış və auditor hesabatları müzakirə olunub



Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu ildə keçirilən ilk kollegiya iclasında bir sıra həyata keçirilmiş nəzarət tədbirləri üzrə analitik arayış və auditor hesabatları müzakirə olunub...

Bax səh. 5

### Media nümayəndələri UNEC-də imtahanların gedişini izləyiblər

Yanvarın 8-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) qış imtahan sessiyasının gedişini izləmək üçün mediatur təşkil olunub. AZƏRTAC xəbər verir ki...



Bax səh. 5

### Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib

Yanvarın 8-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşlarla növbəti görüş olub. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib...



Bax səh. 5

### "Mehman Hüseynov məsələsində uğursuz siyasi manipulyasiya cəhdləri var"

"Əgər bu gün kimlərsə ictimai rəyi çaşdırmaq məqsədi ilə Mehman Hüseynovu "jurnalist" olaraq təqdim edirlərsə, bu məsələdə birmənalı olaraq...



Bax səh. 5

### *Dövlət Statistika Komitəsi:* Ölkə üzrə pambıq tədarükü 232 min tonu ötüb

Pambıq qəbulu məntəqələrinə ölkə üzrə 232 min 231 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə...



Bax səh. 8

# 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib

## **Prezident İlham Əliyev:** *Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib*

*Dünya siyasəti və beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verir, ayrı-ayrı regionlarda mürəkkəb geosiyasi proseslər müşahidə edilir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitlik və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Ümumiyyətlə, yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən xarici siyasət kursunun səmərəliliyindən asılıdır. Rasional və praqmatik xarici siyasət kursu milli maraqları təmin etməklə yanaşı, ölkənin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunə kimi çıxış edir.*



Bu, bir həqiqətdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, çoxvektorlu, tarazlaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursunun qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Hazırda regional güc mərkəzi olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətləri, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında mütəmadi yüksəlişə malikdir. Ümumiyyətlə, 2018-ci ildə Prezident İlham Əliyevin 16

*"İslam həmrəyliyi məsələlərində bizim rolumuz artır. İslam Əməkdaşlıq Təşkilatı bu sahədə apardığımız siyasətə çox yüksək qiymət verir və tam əminliklə demək olar ki, Azərbaycan müsəlman aləmində öz güclü rolunu daha da gücləndirə bilib. Müsəlman ölkələri tərəfindən bizə göstərilən diqqət, hörmət və rəğbət göstərir ki, Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur"*

rəsmi və işgüzar səfərinin həyata keçirilməsi, müxtəlif ölkələrin dövlət və hökumət başçılarının ölkəmizdə rəsmi və işgüzar səfərlərdə olmaları Azərbaycanın xarici siyasət kursunun intensiv və dinamik xarakter daşıdığını göstərir. Yeri gəlmişkən, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bu məqamlara toxunaraq qeyd edib ki, Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib: **"Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mən bu il 16 xarici səfər etmişəm. Ölkəmizə 16 dövlət və hökumət başçısı səfər etmişdir və bu, ikitərəfli əlaqələrimizin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik".**

### AZƏRBAYCAN BEYNƏLXALQ ALƏMDƏ LAYİQLİ YER TUTUR

Azərbaycanın xarici siyasət kursunun xarakterik xüsusiyyətlərindən biri də odur ki, ölkəmiz regionda, eləcə də beynəlxalq səviyyədə əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Ölkəmizin iştirakı, təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələrin əhəmiyyəti və nəticələri deyilənləri təsdiq edir. Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyada mühüm nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, dünya siyasətinin aparıcı aktorları, həmçinin mötəbər regional və beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər. Ümumiyyətlə, beynəlxalq miqyasda əminliklə ifadə olunur ki, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla əməkdaşlıq əhəmiyyətli strateji dividendlər vəd edir. Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri və güc mərkəzləri üçün də strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Həmin geosiyasi subyektlər Azərbaycanla əməkdaşlığın əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

Bunlarla yanaşı, qlobal əhəmiyyətli transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan regionda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqurudur. Müxtəlif regional əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü ilə yaranıb və olduqca səmərəli fəaliyyət göstərirlər. Avrasiyanın mühüm geostrateji məntəqələrindən biri olan Cənubi Qafqazın lider dövləti kimi çıxış edən Azərbaycan öz çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu ilə regional əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirir. Bu sırada region dövlətləri ilə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər böyük əhəmiyyət daşıyır. Azərbaycan öz xarici siyasət kursunda region ölkələri ilə, eləcə də işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə qarşılıqlı hörmət, bərabərhüquqlu və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurub. Bu kontekstdə region ölkələri ilə münasibətlərin qeyd olunan amillər əsasında inkişafı bütövlükdə regionun tərəqqisi, həmçinin bölgədə sülhün və təhlükəsizliyin təmin olunması baxımından strateji önəm daşıyır. Prezident İlham Əliyev bəhs olunan təbrikində bu məqamlara toxunaraq **"Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək səviyyəyə qalxıb. Bu, hər bir ölkə üçün çox önəmlidir, o cümlədən Azərbaycan üçün. Qonşu dövlətlərlə həm siyasi, həm iqtisadi və digər sahələrdə birgə apardığımız işlər bölgədə sabitliyi daha da möhkəmləndirir. Sabitliyə gəldikdə, deyə bilərəm ki, dünyada gərginlik, risklər, təhdidlər artır, Azərbaycan isə sabitlik məkanıdır. 2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq-iqtidar birliyidir"**, - deyə vurğulayıb.

*"Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik"*

### ÖTƏN İL AZƏRBAYCAN AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİNİ DAHA DA MÖHKƏMLƏNDİRİB

2018-ci ildə Azərbaycan xarici siyasətdə mühüm nailiyyətlər qazanıb, çoxşaxəli əlaqələrini uğurla davam və inkişaf etdirib. Bu kontekstdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin ötən il daha da möhkəmləndiyini xüsusi olaraq vurğulamaq gərəkdir. Ümumiyyətlə, Avropa İttifaqı ölkəmiz ilə müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artmasını da bu kontekstdə ayrıca qeyd etmək gərəkdir. Ölkəmizin liderliyi ilə həyata keçirilən transmilli enerji layihələri bəhs olunan qitənin enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfədir.

Bütövlükdə, ekspertlərin qənaəti bundan ibarətdir ki, Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın inkişafı üçün yaxşı perspektivlər var. Bu baxımdan, tərəflər arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin də ikitərəfli tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açdığı diqqətə çatdırılır. Ən əsası, Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə Brüsseldə paraflanmış Tərəfdaşlıq Prioritetləri sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyin ifadə olunması mühüm əhəmiyyətə malikdir. Beləliklə Prezident İlham Əliyevin qeyd etdiyi kimi: **"Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir".**

### İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI İSLAM HƏMRƏYLİYİ MƏSƏLƏLƏRİNDƏ AZƏRBAYCANIN APARDIĞI SİYASƏTƏ ÇOX YÜKSƏK QİYMƏT VERİR

Onu da qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionunun lider dövləti olan, etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Respublikamız özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır. Eyni zamanda, ölkəmiz öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Azərbaycanın həm müxtəlif tədbirlərə ev sahibliyi etməsi, həm də dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi sivilizasiyalararası dialoqun genişləndirilməsi, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Bunlarla yanaşı, Azərbaycan İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə mühüm təşəbbüslər irəli sürür, praktik addımlar atır. İslam dünyasında həmrəyliyin təmin olunmasına müstəsna töhfələr verən Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi dünyaya mühüm bir çağırış oldu. Ümumiyyətlə, Azərbaycanın İslam həmrəyliyinə xidmət edən bu təşəbbüsü, bu kontekstdə ölkəmiz tərəfindən atılan addımlar yüksək qiymətləndirildi. Bununla yanaşı, Azərbaycanın müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malik olması və qarşılıqlı faydalı münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Digər tərəfdən, respublikamız müsəlman ölkələrinin təşkilatı olan İslam Əməkdaşlıq Təşkilatında (İƏT) fəal təmsil olunur və ikitərəfli, eləcə də çoxtərəfli formatda mövcud olan qarşılıqlı faydalı əlaqələr davamlı olaraq daha da möhkəmləndirilir. 2017-ci il ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları da Azərbaycanın gücü və nüfuzunu bir daha nümayiş etdirməklə yanaşı, İslam həmrəyliyinə xidmət etdi. Dünya ictimaiyyəti müsəlman aləmini - İslam ölkələrini Şərq və Qərbin qovuşuğunda birləşdirən IV İslam Həmrəyliyi Oyunları çərçivəsində müsəlman ölkələrinin birlik və həmrəyliyinə şahidlik etdi. Azərbaycan 2018-ci ildə də İslam həmrəylinə mühüm töhfələr verib, bu istiqamətdə fəaliyyətini uğurla davam etdirib. Dövlətimizin başçısı bəhs olunan çıxışında **"İslam həmrəyliyi məsələlərində bizim rolumuz artır. İslam Əməkdaşlıq Təşkilatı bu sahədə apardığımız siyasətə çox yüksək qiymət verir və tam əminliklə demək olar ki, Azərbaycan müsəlman aləmində öz güclü rolunu daha da gücləndirə bilib. Müsəlman ölkələri tərəfindən bizə göstərilən diqqət, hörmət və rəğbət göstərir ki, Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur"**, - deyə vurğulayıb.

*"Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik... Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir"*

### XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ TARİXİ NAİLİYYƏTDİR

Ötən il Azərbaycanın iştirakı ilə regional və beynəlxalq əməkdaşlıq, sabitlik və təhlükəsizlik kontekstində müstəsna - strateji əhəmiyyətə malik olan tarixi hadisələrdən biri də avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanması oldu. Ümumiyyətlə, Aktau Zirvə toplantısında qəbul edilmiş qərarlar Xəzəryanı ölkələrin maraqlarına cavab verir, Xəzər regionunda əməkdaşlığın genişlənməsinə xidmət edir. Xəzərin hüquqi statusu ilə bağlı razılaşmanın əldə olunmasında Azərbaycanın tarixi əhəmiyyətə malik olan xüsusi rolu var. Azərbaycan bu məsələ ilə bağlı danışıqların aparıldığı müddətdə Xəzərin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli bölgüsünü təklif edib, bütün tərəflərin mənafelərini nəzərə alıb. Bütövlükdə, Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında imzalanmış Konvensiya fundamental normativ sənəd kimi Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyən etməklə yanaşı, regionda sülh, sabitlik, təhlükəsizlik və əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edir və siyasi, iqtisadi, geostrateji baxımdan müstəsna əhəmiyyətə malikdir.

Bütövlükdə, Qazaxıstanın Aktau şəhərində keçirilmiş Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı öz müsbət nəticələri ilə yadda qaldı. Ekspertlərin qənaəti budur ki, Zirvə toplantısında imzalanmış Konvensiya Xəzərin hüquqi statusunu müəyyənləşdirməklə yanaşı, nəqliyyat, ekologiya və bütövlükdə regionda sülh və təhlükəsizlik məsələlərini özündə ehtiva etdiyinə görə strateji əhəmiyyət daşıyır və Xəzəryanı ölkələrin hamısının maraqlarına uyğundur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: **"Bu il Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi öz həllini tapdı. Bu, hesab edirəm ki, tarixi nailiyyətdir. Çünki bildiyiniz kimi, uzun illər ərzində bu məsələ həll olunmamış qalmışdı. Ancaq bu, hazırda öz həllini tapıb və Azərbaycan bu məsələnin həllində öz dəyərli töhfəsini vermişdir".**

Nəticə etibarilə, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, bu isə ölkəmizin dost və tərəfdaşlarının sayının artmasını, respublikamızın ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafını şərtləndirir. 2018-ci ildə Azərbaycanın tərəfdaş ölkələrlə əlaqələrinin yeni mərhələyə qədəm qoyması bunun bariz nümunəsi və təzahürüdür.

**Nurlan QƏLƏNDƏRLİ**

# Cənubi Qafqaz və Mərkəzi Asiya: “Stratfor”un risklərlə dolu proqnozları

*Amerikanın “Stratfor” qlobal strateji təhlil mərkəzi 2019-cu il üçün Cənubi Qafqaz və Mərkəzi Asiya ilə bağlı proqnozlar verib. Onlara nəzər saldıqda, bir sıra düşündürücü məqamları görmək mümkün olur. Hər şeydən öncə, aydın olur ki, bu iki regionda cərəyan edən geosiyasi proseslər bir-biri ilə əlaqədə götürülür. Ekspertlər hesab edirlər ki, hər iki region üçün 2019-cu il geosiyasi aspektdə mürəkkəb il olacaq. Burada qeyri-müəyyənliklər və risklər özünü göstərəcək. Dünyanın böyük gücləri olan ABŞ, Rusiya və Çinin həmin regionlar uğrunda mübarizəsi daha da intensivləşəcək. Proqnozlara görə, bu mübarizə Əfqanıstandan başlayaraq geniş məkanda terror və narkoticarəti canlandıra bilər. Bundan sadə insanlar daha çox ziyan görəcəklər. Eyni zamanda, böyük güclərin antiterror əməliyyatları adı altında müxtəlif fəaliyyətləri ola bilər. Bununla da Yaxın Şərqlə yanaşı, başqa bir məkanda da silahlı qarşıdurmalar özünü göstərər. “Stratfor”un proqnozları kontekstində yuxarıda vurğulanan məqmların geosiyasi analizi üzərində geniş dayanmağa ehtiyac görürük.*




### CƏNUBİ QAFQAZ: GEOSİYASİ MƏNZƏRƏ QARIŞIR

ABŞ-ın tanınmış beyin mərkəzlərindən olan “Stratfor”un 2019-cu il proqnozları içərisində Qafqaz və Mərkəzi Asiya ayrıca yer tutur. Hesab olunur ki, bu il həmin regionlar geosiyasi proseslərin ən intensiv özünü göstərəcəyi məkanlardan biri olacaq. Proqnozlarda bu regionlar qarşılıqlı əlaqədə təqdim olunur. Ümumi məntiq ondan ibarətdir ki, Cənubi Qafqazla eyni səviyyədə Amerika ilə Rusiya arasında geosiyasi savaş Mərkəzi Asiyada baş verəcək. Bu prosesə Çin də ciddi surətdə qarışacaq (bax: 2019 Annual Forecast / worldview.stratfor.com, 3 dekabr 2018)

“Stratfor” Cənubi Qafqazı tamamilə ABŞ və Rusiyanın nüfuz uğrunda mübarizə məkanı kimi tədqim etməyə çalışır. Yəni burada region dövlətlərinin öz maraqlarının aparıcı rol oynayacağı tezisi qəbul edilmir. Bütün proseslərə Amerika, yaxud Rusiyanın üstünlüyü müstəvisində baxılır. Bu, özlüyündə mənfi haldır, ancaq reallıqdırsa, hadisələrə də həmin prizmadan baxmaq lazım gəlir.

Öncə belə çıxır ki, Vaşinqtonla Moskva Cənubi Qafqazda ən yaxın müttəfiqlərini müəyyənləşdirməyə çalışacaqlar. Maraqlıdır ki, məhz bu bənd onların ən sərt toqquşma yeri ola bilər. Çünki “Stratfor”a inansaq, hər iki böyük güc Ermənistanı yaxın müttəfiq kimi seçmək niyyətindədir. Daha doğrusu, Rusiya artıq orada tam hakimdir və ABŞ başlıca olaraq oranı Rusiyanın əlindən almağa çalışacaq (bax: əvvəlki mənbəyə). Bunun müxtəlif səbəbləri qeyd edilir. Ancaq əsas odur ki, Cənubi Qafqazda dəqiq mövqeyi olmayan və daim havadar axtaran ölkə məhz Ermənistandır. Konkret desək, Vaşinqton Ermənistanın bu zəifliyindən istifadə edərək regionda özünün maraqları uğrunda daha sərt mübarizə aparmaq niyyətindədir.

Vaşinqtonun planlarında Ermənistana ayrıca yer verilməsi həm də İran probleminə görədir. Belə ki, Amerika İrana qarşı daha sərt mövqe tutmaq niyyətindədir. Cənubi Qafqazda isə daha çox Ermənistan İrana ümid edir. Əgər Amerika Ermənistana müəyyən yardımlar etməsə, İrəvan İranla əlaqələri dərinləşdirmək üçün bəhanə əldə edər. Yəni ABŞ Ermənistana diqqəti artırmaqla həm də onun İranla olan münasibətlərində uçurum yaradır. Zəif və asılı Ermənistan buna asanlıqla getməkdədir.

Əgər Amerika Ermənistanı Rusiyanın təsiri altından çıxara və ya Moskvanın mövqeyini xeyli zəiflədə bilsə, onda Cənubi Qafqazda vəziyyəti tarazlıqdan çıxarmağa daha şanslı olur. Çünki Gürcüstan öncədən Qərbi seçib və orada hər hansı işlər görməyə ehtiyac yoxdur. Azərbaycan isə müstəqil siyasət yeridən ölkə kimi kimsəyə boyun əymir. Bu səbəbdən ancaq Ermənistan marionet rolunu oynaya bilər.

Görünür, “Stratfor”un analitikləri bütün bunları nəzərə alaraq, 2019-cu ildə Rusiya ilə Amerika arasında Cənubi Qafqazda forpost uğrunda daha amansız mübarizə apara bilərlər. Lakin burada bir geosiyasi məqam meydana gəlməkdədir. Məsələ ondan ibarətdir ki, Amerika Suriyadan hərbi kontingentini çıxarmaqla bağlı qərar verib və bu, Moskvanın əlini Yaxın Şərqdə xeyli gücləndirib. Bütövlükdə Moskva ilə getdikcə daha çox sayda dövlətlər geosiyasi əməkdaşlıq etməyə başlayıblar. Bu da ABŞ-ın Ermənistan uğrunda mübarizədə uğur qazanmaq şansını minimuma endirir.

### ƏFQANISTAN FAKTORU: MƏRKƏZİ ASİYA ÜÇÜN İKİ TƏHLÜKƏ

Digər tərəfdən, ABŞ-ın özünün Yaxın Şərq, Qafqaz, Mərkəzi Asiya və Uzaq Şərq məkanında fəaliyyət üsulunu yeniləşdirmək qərarına gəlməsi yeni mənzərəni ortaya qoyur. İndi Vaşinqtonun Suriya, İraq və Əfqanıstanda necə davranacağı məlum deyil. Belə ki, D.Tramp Suriyadan çıxmağa tələsmədiklərini artıq ifadə edib, İraqa səfəri zamanı buradan hərbi gücü çəkməyəcəklərini bəyan edib və Əfqanıstanda da hərbi mövcudluğu davam etdirəcəklərini bəyanlayıb. Onda Amerika haradan və nə miqdarda hərbi güc çəkir? Belə çıxır ki, mahiyyətcə heç yerdən çəkilmə yoxdur, sadəcə qüvvələrin konfiqurasiyası yeniləşdirilir. Bəlkə də D.Trampın Suriya ilə bağlı dedikləri kontekstində “yenidən siyasi şəkillənmə zamanı” ifadəsi həmin məqama aiddir.

Bunlardan belə qənaətə gəlmək olar ki, “Stratfor” Cənubi Qafqaz ilə Mərkəzi Asiyanı və Əfqanıstanı biri ilə sıx bağlı götürməkdə səhv etməyib. Mərkəzi Asiyada analitik mərkəzin proqnozuna görə, Amerika iqtisadi və hərbi cəhətdən Qazaxıstanla Özbəkistana daha çox diqqət yetirəcək. “Stratfor” yazır: “Vaşinqton bütün Mərkəzi Asiya ilə, öncəliklə Qazaxıstan və Özbəkistanla iqtisadi əlaqələrin yaxşılaşmasına can atacaq” (bax: əvvəlki mənbəyə). Bunun fonunda Amerika Mərkəzi Asiyaya Əfqanıstanda cərəyan edən proseslərlə eyni məntiqdə yanaşmağı planlaşdırır (təbii ki, “Stratfor”a görə). Bu da pərdəarxası bir sıra məqamlara əlavə diqqət yetirməyi tələb edir.

İlk növbədə, belə təxmin edilir ki, terrorçular Əfqanıstana daha çox üz tuta bilərlər. Oradan Çin və Rusiya istiqamətində hərəkət etmək imkanları çoxdur. Rusiya Federal Təhlükəsizlik Xidməti bu barədə bir neçə dəfə informasiya yayıb. ABŞ-ın Suriyadan çəkilməsi ilə terrorçuların başqa məkanlara keçməsi arasında bir əlaqənin olduğunu düşünənlər də vardır.

Digər tərəfdən, Əfqanıstandan narkoticarət yolları dünyanın hər tərəfinə yayılır. Son zamanlar Mərkəzi Asiya ölkələri üçün bu, daha ciddi problemə çevrilib. İndi ekspertlər ehtiyat edirlər ki, ABŞ-ın Əfqanıstandakı hərbi kontingentinin yeni komandanı Skott Miller öz sərt və güzəştsiz mövqeyi ilə vəziyyəti daha da gərginləşdirə bilər. Məsələ ondan ibarətdir ki, S.Miller terrora qarşı təxribatçı əməliyyatları ilə məşhurdur. Burada bir sıra hallarda məqsəd terror qruplarını maliyyə ilə təmin etməkdən ibarət olur. Yəni əməliyyat sözdə narkoticarətə qarşı aparılır, reallıqda isə gəlirlər terror qruplarına yönəldilir.

Bunu Moskvada və Pekində yaxşı anlayırlar. Deməli, Rusiya və Çin də Əfqanıstanda antiterror əməliyyatları apara bilərlər. Bu isə o deməkdir ki, geniş bir geosiyasi məkanda ABŞ, Rusiya və Çinin toqquşduğu və sözdə “antiterror əməliyyatları” adlanan gərginlik meydanı yarana bilər. Ekspertlər bunun acı nəticələr verə biləcəyini istisna etmirlər.

Dolayısı ilə Mərkəzi Asiyada ABŞ-la Çin arasında geosiyasi savaşın artacağını gözləmək olar. Əslində, “Stratfor”un proqnozlarına görə, bu proses bütün dünyada intensivləşəcək. Müxtəlif regionlarda Amerika-Çin qarşıdurması öz təsirini göstərəcək. 2019-cu ilin ilk günlərində bunun əlamətlərindən biri özünü büruzə verdi. Çinli general xəbərdar etdi ki, Pekin Cənubi Çin dənizində Amerikanın iki hərbi gəmisini batıra bilər. Bu isə 10 min ABŞ əsgərinin həlak olması deməkdir. Təbii ki, xeyli təhlükəli fikirdir və birbaşa Vaşinqtonu qıcıqlandırır. Bu kimi qarşılıqlı təhdidlərin davam etdiyi halda ciddi problemlərin yaranma ehtimalı yüksəkdir.

Yuxarıda vurğulanan məqamlardan belə görünür ki, “Stratfor” 2019-cu ildə Cənubi Qafqaz və Məkəzi Asiyada geosiyasi qeyri-müəyyənliyin artmasını proqnozlaşdırır. Bu, bir tərəfdən, Amerikanın dünya liderliyi iddiasını davam etdirməsi, digər tərəfdən isə böyük bir geosiyasi məkanda ABŞ-Rusiya və ABŞ-Çin qarşıdurmasının yüksəlməsi ilə şərtlənir. Ümumilikdə mürəkkəb və riskli geosiyasi mənzərə meydana gəlir ki, burada da sabitliyə nail olmaq çətin iş ola bilər.

Bunlarla yanaşı, “Stratfor” faktiki olaraq Vaşinqtonun ata biləcəyi addımlardan bəhs edir. Onlar kifayət qədər təhlükəli görünür. Deməli, 2019-cu ildə dünya üzrə geosiyasi dinamikanın sabitlik yarada biləcəyi barədə danışmaq reallığa uyğun gəlmir. Burada hansı qüvvənin üstün gəlməsindən asılı olmayaraq, son nöqtə qoyulmur. Bu baxımdan 2019-cu il müəyyən geosiyasi proseslərin sonudursa da, bütövlükdə digər riskli və qeyri-müəyyən aktorların da başlanğıcı ola bilər. Konkret desək, Amerika Rusiya sərhədinə təhlükələri yaxınlaşdırmağa çalışdığı kimi, Moskva da onu əks tərəfə ötürməyə cəhd edəcək. Bu qarışıqlıqda isə zərər görən region xalqları və bütövlükdə təhlükəsizlik sistemi olacaq.

**Newtimes.az**

# “Erməni xalqının səfalətdən xilas olması münaqişənin tezliklə həllindən asılıdır”



*Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

**- Siyavuş müəllim, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində birmənalı olaraq bildirdi ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Siz bunu necə xarakterizə edərdiniz?**

- 2018-ci il Azərbaycan tarixinə növbəti bir uğurlu il kimi daxil oldu, həm iqtisadi, həm də siyasi sahədə böyük nailiyyətlər əldə edildi. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Bu baxımdan geridə qoyduğumuz 2018-ci il də istisna olmayıb. Xüsusi vurğulamaq istərdim ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci il 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin yaradıb, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirib. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsi ilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

Ötən ildə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Başa vurduğumuz ilin əlamətdar hadisələrindən biri də daim milli-mənəvi dəyərlərimizə verilən yüksək qiymət çərçivəsində Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində, ölkə miqyasında və diplomatik nümayəndəliklərimizin yer aldığı xarici ölkələrdə geniş və təntənəli şəkildə qeyd edilməsi oldu.

**- Ölkə başçısı həmçinin vurğuladı ki, Azərbaycanın güclü hərbi potensialı Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Bu haqda nə düşünürsünüz?**

- Azərbaycanın qarşısında duran ən mürəkkəb problem heç şübhəsiz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Lakin ötən il Azərbaycanın Ermənistana qarşı uğurla tətbiq etdiyi “iqtisadi izolyasiya” siyasəti nəticəsində bu ölkədə ciddi sosial-siyasi kataklizmlər baş verib, hakimiyyət dəyişikliyi olub. Paralel olaraq Azərbaycan Silahlı Qüvvələrinin döyüş potensialı daha da artıb, ordumuz dünyanın ən güclü orduları sırasında ön cərgələrə çıxıb.

**- Cənab Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, Azərbaycan son illər ərzində öz hərbi qüdrətini yüksək dərəcədə artıra bilib. Bu barədə nə deyərdiniz?**

- Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığı çox yüksəkdir. Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Təkcə kəmiyyət etibarilə deyil, peşəkarlıq və texniki-təchizat baxımından da ordumuz öndədir. Həmçinin onu deyim ki, ordu üçün əsas məsələ hərbi təhsil, nizam-intizam və təchizatdır. Azərbaycan Ordusu bu gün həm nizam-intizamına, həm təhsilinə, həm də təchizatına görə öndədir. İqtisadiyyatı güclü olan ölkə üçün silahlı qüvvələrin təchizatı məsələsi problem olmamalıdır. Bu mənada Azərbaycanda iqtisadi inkişaf özünün yüksək mərhələsindədir. Təbii ki, belə olan şəraitdə ordumuzun təminatına da xüsusi diqqət yetirilir.

Büdcə artdıqca hər sahə üçün ayrılan vəsaitlərin həcmi də artır. Bu baxımdan orduya da ayrılan vəsait xeyli dərəcədə yüksəlib. Bu gün Azərbaycanın hərbi büdcəsi işğalçı Ermənistanın dövlət büdcəsindən çoxdur. Bu gün bizim ordumuz maliyyələşməsinə görə dünyada birinci iyirmiliyə daxildir. Onu da xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan Ordusu bu gün ən müasir texnika, silahlarla təmin olunub. Belə ki, öz ordusunu müasirləşdirən dövlətimiz bunun üçün dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. Eyni zamanda, ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir ki, bu da beynəlxalq müstəvidə bizim hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı xeyli artırıb. Beynəlxalq sərgilərdə ölkəmizin bu yöndəki məhsullarına güclü marağın olması bunu deməyə əsas verir.

**- Paşinyanın Rusiyaya sonuncu səfəri uğursuz, nəticəsiz və utancverici olub. Bunu bütün dünya KİV-ləri də öz yazılarında dərc edib. Siz bəs Ermənistanda bundan sonrakı prosesləri necə proqnozlaşdırardınız?**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Ermənistandakı hərbi xunta ölkə vətəndaşlarını əsarət altında saxlayır, iqtisadiyyatı darmadağın edib, sosial problemlər pik həddinə çatıb. Sonda bu problem Ermənistan əhalisinin özü tərəfindən etiraf olundu. Cinayətkar rejimin ölkədə yaratdığı ağır vəziyyət nəticəsində iş tapa bilməyən Ermənistan əhalisi xarici ölkələrə miqrasiya etməyə məcbur olur.

Dövlət başçısı müxtəlif beynəlxalq tədbirlərdə Ermənistandakı iqtisadi, demoqrafik böhranla bağlı faktları dəfələrlə səsləndirib. Hazırda həm Ermənistan əhalisi, həm də Dağlıq Qarabağdakı erməni əhalisi problemdən çıxış yolunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində görür. Ermənistan xalqının normal yaşaması üçün bu, zəruridir. Ermənistan apardığı işğalçı siyasətin nəticəsində bu gün Azərbaycanın həyata keçirdiyi mühüm beynəlxalq layihələrdən kənarda qalıb. Hazırda Ermənistanda sənaye müəssisələri fəaliyyətini dayandırıb və ucuz qiymətə müxtəlif xarici ölkələrə satılır.

Bununla yanaşı, hərbi xuntanın bir qrup üzvü narkotik maddələrin qanunsuz dövriyyəsi və gizli silah satışı ilə məşğuldur. Əldə olunan maliyyə vəsaiti isə terrorçu qrupların hazırlanmasına sərf edilir. Müxtəlif xarici ölkələrdəki erməni diaspor təşkilatları Ermənistana göstərilən maliyyə yardımlarını dayandırıblar. Ermənistanın yeni rəhbərliyi bütün bunları nəzərə alıb normal siyasi fəaliyyətlə məşğul olmalı, dövlətimizin başçısının qeyd etdiyi kimi, əvvəlki hakimiyyətin səhvlərini təkrarlamamalı və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görməlidir. Çünki erməni xalqının səfalətdən xilas olması Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllindən asılıdır.

**- Mehman Hüseynovla bağlı anti-milli şəbəkə və onun xaricdəki havadarları ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Sizcə bu insanların məqsədi nədir və nəyə nail olmaq istəyirlər?**

- Ümumiyyətlə, Mehman Hüseynov heç vaxt jurnalist fəaliyyəti göstərməyib, onun kimilərinin məqsədi yalnız Azərbaycan haqqında mənfi rəy yaratmaq olub. Onun qardaşı Emin Hüseynov da bir müddət İsveçrənin Bakıdakı səfirliyində yaşadı, sonra İsveçrəyə getdi. Yəni bu adamların məqsədi dövlətə, xalqa xidmət deyil, ölkəmiz, dövlətçiliyimiz, xalqımızı haqqında mənfi informasiya yaymaqdır. Kim hansı əməli törədibsə, cəzasını almalıdır. Mehman Hüseynov da cinayət törədib, eyni zamanda, vəzifəsini yerinə yetirən zabitə qarşı zor tətbiq edib. Kim olursa-olsun, cinayət törədibsə, mütləq cəzasını almalıdır. Hər kəs qanun qarşısında birdir və törətdiyi cinayətə görə cəzasını almalıdır.

Antimilli qruplar və onların xaricdəki havadarları bu hadisəni Azərbaycanın əleyhinə növbəti kampaniyaya başlamaq üçün fürsət kimi istifadə edirlər. Bu kampaniyanın arxasında kimlərin durduğu, əslində məqsədin Azərbaycan dövlətinə təzyiq göstərmək cəhdi olduğu bəllidir. Təsadüfi deyil ki, Viktoriya Nulandın “uşaqları”nın çirkab kampaniyası ermənipərəst senator Marko Rubionun Azərbaycana qarşı açıqlaması və bu cəbhədə xüsusi yer tutan “The Washington Post” qəzetinin redaksiya məqaləsi ilə tamamlandı. Eyni şəbəkənin xaricdəki və Azərbaycandakı izləri çox aydın göründü. Antimilli şəbəkə və onların xaricdəki havadarları unutsalar da, dəfələrlə sübut olunub ki, Azərbaycan dövləti ilə təzyiq dilində danışmaq, qarayaxma kampaniyası vasitəsilə onu güzəştə məcbur etmək mümkün deyil.

# Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür

## *Prezident İlham Əliyevin müvafiq Fərmanı şəhid ailələrinə diqqət və qayğının bariz nümunəsidir*

*Məlumdur ki, sosial dövlət olan Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində məhz ölkə vətəndaşı dayanır. Son 15 ildə davamlı olaraq atılan addımlar, görülən tədbirlər aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin və əlilliyi olan şəxslərin sosial rifahının yüksəldilməsində əsaslı rol oynayıb. Prezident İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzaladığı Fərman və sərəncamlar birmənalı şəkildə aztəminatlı ailələrin rifahının yüksəldilməsinə yol açıb. Bir sözlə, Vətənin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin ailələrinə, eləcə də müharibə əlillərinə təqaüdlər verilir, həmin ailələr evlə, maşınla təmin edilir, onların sosial rifah halının yüksəldilməsi üçün davamlı tədbirlər görülür, addımlar atılır.*



### 2019-CU İLDƏ ŞƏHİD AİLƏLƏRİNƏ, QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ ƏN AZI 800 MƏNZİL VERİLMƏSİ NƏZƏRDƏ TUTULUR

Vurğulayaq ki, Azərbaycanda qayğıya ehtiyacı olan vətəndaşlara, aztəminatlı ailələrə dövlətin göstərdiyi dəstək çoxşaxəli xarakter daşıyır. İstər qaçqın və məcburi köçkünlər, istərsə də şəhid ailələri və müharibə əlilliyi olan vətəndaşlar bir sıra imtiyazlardan yararlanır, onların mənzil şəraiti yaxşılaşdırılır. Yeri gəlmişkən, bu günə qədər 290 minədək köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Ötən il 20 min məcburi köçkünə (5800 ailə), 2017-ci ildə isə 12 min məcburi köçkünə yeni mənzillər verilib. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən 315 nəfər ötən il mənzil və fərdi evlə təmin olunub. Eləcə də Prezident İlham Əliyevin 2018-ci il 2 avqust tarixli Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına imkan yaradıb. Ötən il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və 2019-cu ildə də ən azı 800 mənzil veriləcək.

Bundan başqa, Qarabağ müharibəsi əlilləri dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. 2018-ci ilin noyabrına qədər ümumilikdə müharibə əlillərinə 6144, o cümlədən 2018-ci ildə 265 avtomobil verilib. 2017-ci ildə əlilliyi olan şəxslərə 33 min ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitəsi, tibbi göstərişi olan əlillərə 1193 ədəd əlil arabası verilib, 39,8 min nəfərə bərpa xidməti göstərilib. İl ərzində dövlət vəsaiti hesabına 1800-2000 nəfər müharibə əlilinə protez-ortopedik xidmət göstərilir. İl ərzində dövlət vəsaiti hesabına hesabla 7,1 min əlilliyi olan şəxsə və şəhid ailəsi üzvünə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sanator-kurort putyovkası və istirahət göndərişləri verilir.

Bununla yanaşı, ölkəmizdə şəhid ailələrinə 242 manat məbləğində aylıq Prezident təqaüdü verilir. Eyni zamanda, Milli Qəhrəmanlara və ya həlak olanların ailələrinə aylıq 1500 manat Prezident təqaüdü ödənilir. Milli Qəhrəman ailəsi üzvlərinin əmək pensiyasına hər ay 110 AZN əlavə edilir. Müvafiq kateqoriyadan olan insanların əmək pensiyasına hər ay müəyyən həcmdə vəsait əlavə olunur. Eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət verilir. Bundan başqa, şəhid ailələrindəki uşaqlara aylıq sosial müavinət ödənilir. Eləcə də şəhid ailələrinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda onların təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Prezident İlham Əliyevin 19 aprel 2018-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı da dövlətimizin bu qəbildən olan insanlara, ailələrə diqqət və qayğısının bariz nümunəsidir. Xatırladaq ki, Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub.

Müvafiq sənədlər əsasında hazırlanan siyahılar üzrə vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ olan şəhid hərbi qulluqçuların sayı 10 minə yaxındır. Yuxarıda qeyd olunan kateqoriyadan olan hərbi qulluqçuların vərəsələrinə ödənilməkdən ötrü ötən il üçün 58 milyon, cari 2019-cu il üçün isə 50 milyon manat maliyyə vəsaiti ayrılıb. Yeri gəlmişkən, ötən il dekabrın 17-də Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, 2018-ci ildə keçirilən prezident seçkilərindən dərhal sonra imzalanan birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olub: **"Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır".**

### ŞƏHİD HƏRBİ QULLUQÇULARIN VƏRƏSƏLƏRİ DÖVLƏTİN ONLARA GÖSTƏRDİYİ DİQQƏT VƏ QAYĞIDAN RAZIDIRLAR

Qeyd edək ki, şəhid ailələri dövlətin diqqət və qayğısını yüksək qiymətləndirirlər. Bizimlə söhbətində şəhid hərbi qulluqçuların vərəsələri onlara dövlət başçısının müvafiq Fərmanına əsasən birdəfəlik ödəmələrin verilməsindən razılıqlarını bildirir, prosesin şəffaflığının təmin olunduğunu deyirlər. Şəhid hərbi qulluqçu Novruz Hüseynovun qardaşı Əkbər Hüseynov deyib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə göstərilən diqqət və qayğı çox yüksək qiymətə layiqdir: **"Qardaşım Novruz Hüseynov Azərbaycanın çətin dövrlərində vətən torpağı uğrunda döyüşlərdə iştirak edib. O, 1970-ci ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olub. Hərbi xidmətdən qayıtdıqdan sonra könüllü olaraq Qarabağ müharibəsində, Vətənin qorunmasında iştirak edib. Novruz Hüseynov 1994-cü il mayın 8-də Ağdam rayonunda gedən döyüşlərdə şəhid olub. Onun vətən qarşısında xidmətlərinə görə ailəsinə, vərəsələrinə diqqət göstərilməsi bizi qürurlandırır. Ölkəmizdə şəhid ailələrinə göstərilən davamlı diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm".**

Ə.Hüseynov şəhid hərbi qulluqçuların vərəsələri üçün nəzərdə tutulan on bir min manat məbləğindəki birdəfəlik ödəməni almaq üçün nəzərdə tutulan prosesin şəffaf olduğunu deyib.

Birdəfəlik ödəmə alan digər bir şəhid vərəsəsi - Əliyev Şahin də Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətini yüksək qiymətləndirərək Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğıdan razılığını ifadə edib. Qardaşı şəhid Tofiq Əliyevin vərəsəsi kimi tanınan Ş.Əliyev bildirib ki, qardaşı 1967-ci ildə Ağdam rayonunun Qiyaslı kəndində anadan olub və müharibə başlayanda könüllü olaraq Vətənin keşiyində dayanıb. Qardaşı ilə eyni vaxtda hərbi xidmətdə olan Şahin Əliyev də Qarabağ müharibəsi veteranıdır. Ş.Əliyev bildirib ki, qardaşı Tofiq Əliyev 1993-cü ildə Ağdam rayonunda şəhid olub. Ş.Əliyev deyib ki, dövlətin və Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi bu qayğı və diqqətdən razıdırlar. O qeyd edib ki, birdəfəlik ödəmənin alınması üçün müvafiq sənədləri təqdim edərək həmin ödənişi almaq hüququ qazanıb. Şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün atılan addımları yüksək qiymətləndirən Ş.Əliyev diqqət və qayğıya, həyata keçirilən humanist siyasətə görə dövlət başçısına minnətdarlığını bildirib.

### ŞƏHİD AİLƏLƏRİNƏ GÖSTƏRİLƏN DİQQƏT İCTİMAİYYƏT TƏRƏFİNDƏN RƏĞBƏTLƏ QARŞILANIR

Dövlət başçısının növbəti mühüm humanist addımı kimi şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Vətənin müdafiəsi uğrunda şəhid olmuş qəhrəman Azərbaycan övladlarının ailə üzvlərinin rifahının yaxşılaşdırılması, sosial ədalətin təmin olunması istiqamətində daha bir əhəmiyyətli addım kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı Sevinc Hüseynova qeyd edib ki, Prezident İlham Əliyevin 19 aprel 2018-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğının bariz təzahürüdür. Millət vəkili vurğulayıb ki, bu gün ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas prioritetlərindən olan Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin sosial durumunun yaxşılaşdırılması məsələsi ilə bağlı davamlı işlər görülür. Millət vəkili qeyd edib ki, birdəfəlik ödəmələrin verilməsi prosesi şəffaf şəkildə aparılır: **"Bu proses olduqca şəffaf həyata keçirilir və şəhid ailələri, vərəsələr rahat şəkildə bu ödəmələri alırlar. Proses elektronlaşdırılıb, siyahıda olan şəxslərin hər birinə SMS vasitəsilə pulun hesaba köçürüldüyü bildirilir. Möhtərəm Prezidentimizin bu Fərmanı cəmiyyətimiz tərəfindən çox yüksək qiymətləndirilir".**

S.Hüseynova qeyd edib ki, cari 2019-cu ildə də bu proses davam edəcək və bununla bağlı artıq vəsait də ayrılıb. Onun sözlərinə görə, şəhid ailələrinə mənzillərin verilməsi, xüsusi təqaüdlərin təyin edilməsi, o cümlədən birdəfəlik ödəmələrin verilməsi vətəndaş-dövlət münasibətlərinin daha da möhkəmlənməsinə müsbət təsir göstərir. Bu inam, bu birlik isə Azərbaycan dövlətinin daha yüksək nailiyyətlərə imza atmasında ən əsas rola malikdir.

**Pərviz SADAYOĞLU**

# Məhkəmə fəaliyyətinə dair qanunvericiliyin yeni müddəaları öyrənilir

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, işlərə daha çevik və keyfiyyətlə baxılması, məhkəmələrdə aşkarlığın artırılması və elektron məhkəmə sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür.

Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul olunmuş qanunlarla Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılmasına, operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət edir.

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş müşavirədə yeni qanunvericiliyin icrasının təşkili üzrə tədbirlər təxirəsalınmadan müzakirə olunaraq məhkəmə fəaliyyətinin müasir tələblər səviyyəsində daha səmərəli qurulması qeyd edilib. Bununla əlaqədar xüsusi işçi qrup yaradılıb, tədbirlər planı hazırlanıb, silsilə təlimlərin və digər maarifləndirmə tədbirlərinin keçirilməsi müəyyən olunub.



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər planına uyğun olaraq, yanvarın 8-də Ədliyyə Nazirliyində qanunvericiliyin yeni müddəalarının öyrənilməsi və düzgün tətbiq edilməsi məqsədilə hakimlər üçün təlim keçirilib.

Təlimə respublikanın bütün apellyasiya məhkəmələrinin və aidiyyəti kollegiyalarının, inzibati-iqtisadi və paytaxtın rayon məhkəmələrinin sədrləri cəlb olunub. Tədbirdə nazirliyin, o cümlədən Ədliyyə Akademiyasının, habelə Məhkəmə-Hüquq Şurasının məsul işçiləri də iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Akademiyanın rəhbəri Elçin Xələfov qanunvericilikdəki yeniliklərdən bəhs edərək, onların məhkəmə fəaliyyətinin "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqla səmərəliliyinin artırılmasına, məhkəmə prosesi iştirakçılarının hüquq və vəzifələrinin daha asan və operativ həyata keçirilməsinə xidmət etdiyini vurğulayıb, qanunun düzgün tətbiqində hazırkı təlimin əhəmiyyətini diqqətə çatdırıb.

Ali və Bakı apellyasiya məhkəmələrinin təlimçi-hakimləri tərəfindən yeni qanunların mahiyyəti, bununla bağlı hakimlərin üzərinə düşən vəzifələr dinləyicilərə aşılanıb. Bildirilib ki, dəyişikliklərə əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması, bu zaman proses iştirakçılarına məhkəmə sənədlərinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə (elektron poçt, SMS, elektron kabinet və s.) dərhal çatdırılması, dövlət rüsumlarının sadələşdirilmiş qaydada elektron ödəniş sistemi vasitəsilə ödənilməsi nəzərdə tutulur. Eyni zamanda, yeni qanunvericiliklə vətəndaşların mənafelərinin təmin edilməsi, ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə bəzi kateqoriya işlərə baxılmasının və qərarların daha tez qüvvəyə minməsinin sadələşdirilmiş məhkəmə prosedurları, habelə məhkəmə statistikasının elektronlaşdırılması və digər mühüm yeniliklərin tətbiqi təsbit olunub.

Təlimdə qanunvericiliyin yeni müddəaları dərindən təhlil olunaraq praktikada yaranacaq kazusların həlli yolları müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb, hakimləri maraqlandıran suallara aydınlıq gətirilib.

Sonra yeni qanunların düzgün tətbiqi ilə bağlı prezentasiya keçirilərək məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında "Elektron məhkəmə" informasiya sisteminin imkanları, o cümlədən vahid məhkəmə portalı, vətəndaşların şəxsi kabineti, dövlət rüsumlarının elektron ödəniş sistemi, elektron icra sistemi və s. nümayiş etdirilib.

Dinləyicilər üçün qanunun düzgün tətbiqində böyük əhəmiyyət kəsb edən belə təlimlərin hər bir bölgədə bütün hakimlərin iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

# Yanvar ayı ərzində əmək pensiyalarının indeksləşdirilərək artırılması nəzərdə tutulur

Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti addım olaraq bu ay ərzində əmək pensiyalarının indeksləşdirilərək artırılması təmin ediləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, "Əmək pensiyaları haqqında" Qanunda əmək pensiyalarının ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi nəzərdə tutulur.

İndeksləşdirmə Dövlət Statistika Komitəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yanvar ayı ərzində təqdim olunacaq rəsmi məlumatda keçən il üzrə ölkəmizdə orta aylıq nominal əməkhaqqının artım tempi göstəricisi əsas götürülməklə həyata keçiriləcək. Pensiyaların bu il yanvarın 1-nə olan məbləği həmin göstəriciyə uyğun şəkildə və ilin əvvəlindən indeksləşdirilərək artırılacaq.

İlkin məlumata əsasən, 2019-cu il yanvarın 1-nə ölkəmizdə pensiyaçıların sayı 1,3 milyon təşkil edir və indeksləşdirmə əsasında pensiyalarda artım onlardan təxminən 94 faizinə şamil olunacaq.

Qalan pensiyaçılara isə "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsindəki qruplar, yəni dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və s. aiddir və onların pensiyalarının artımı qanunvericilikdə nəzərdə tutulan başqa mexanizm əsasında həyata keçirilir.

"Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq, bu ay ərzində pensiyalarla birgə, sığortaolunanların fərdi hesablarındakı pensiya kapitallarının da ötən il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə indeksləşdirilərək artırılması gözlənilir.

# Media nümayəndələri UNEC-də imtahanların gedişini izləyiblər



Yanvarın 8-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) qış imtahan sessiyasının gedişini izləmək üçün mediatur təşkil olunub.

AZƏRTAC xəbər verir ki, KİV nümayəndələri, təhsil ekspertləri və İctimai Nəzarət Şurasının üzvləri imtahanların gedişini izləyib, UNEC-də qış imtahan sessiyasının mövcud qaydalara uyğun təşkilini, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın, obyektivliyin təmin olunduğunu müşahidə ediblər.

Şura üzvləri və müşahidəçilər universitetdə imtahanların yüksək səviyyədə təşkil olunduğunu, lazımi şəraitin yaradıldığını bildiriblər. Onlar tələbələrin imtahan suallarını sərbəst cavablandırmalarını, imtahan sessiyasının gedişində nizam-intizam qaydalarına ciddi əməl olunduğunu, eləcə də baş verə biləcək bütün mənfi halların qarşısının alınması üçün lazımi tədbirlərin görüldüyünü müşahidə etdiklərini vurğulayıblar.



"SABAH" qruplarında aparılan yazılı imtahanda 300-dən çox tələbə iştirak edib.

Sessiya boyunca tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmini, şəffaflığın qorunması məqsədilə ictimaiyyət nümayəndələrinin müşahidəçi qismində iştirakı üçün bütün şərait yaradılıb.

# "Mehman Hüseynov məsələsində uğursuz siyasi manipulyasiya cəhdləri var"

**"Əgər bu gün kimlərsə ictimai rəyi çaşdırmaq məqsədi ilə Mehman Hüseynovu "jurnalist" olaraq təqdim edirlərsə, bu məsələdə birmənalı olaraq yanılırlar. Yəni hər hansı bir bloggeri "jurnalist" qismində təqdim etmək, ümumiyyətlə, heç bir çərçivəyə sığmayan bir haldır. Düşünürəm ki, bəlli məsələ həm də beynəlxalq aləmdə Azərbaycana qarşı yanlış təəssürat oyatmaq məqsədini daşıyır. Lakin bu məqsədlər də daha öncəkilər kimi uğursuzluqla nəticəsini tapacaq".** Sözügedən fikirləri SİA-ya "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev bloger Mehman Hüseynovun ətrafında cəhd edilən süni ajiotaja münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, M.Hüseynov bilavasitə cinayət əməllərinə görə həbs edilib və bu həbsin siyasiləşdirilməsi arxasında istər Azərbaycandakı, istərsə də xaricdəki məlum dairələr öz çirkin planlarını reallaşdırmaq istəyirlər: **"Baxın, Mehman Hüseynov daha öncə qanunları pozduğuna görə müvafiq cəzasını alıb və daha sonra, cəza çəkdiyi müəssisədə ikinci dəfə həm qanunları, həm də tələb olunan daxili qaydaları pozaraq yenidən cinayət əməli törədib. Onun barəsində cinayət işi açılıb və istintaq gedir. Yəni məhkəməsi belə olmayıb və ortada hər hansı məhkəmə qərarı da yoxdur. Belə olan vəziyyətdə onun üzərindən siyasi dividendlər qazanmağa cəhd edənlərin, özləri üçün piar kampaniyası aparanların qabaqdangəlmişlik edərək səs-küy salmaları, ümumiyyətlə, heç bir məntiqə sığmır".**

B.Quliyev bildirib ki, Azərbaycanda söz və ifadə azadlığı, internet azadlığı mövcuddur və hər kəs bundan qanunların tələb etdiyi şəkildə istifadə edir: **"Konstitusiyamızda da həmin müddəalar öz əksini tapıb və hüquqi aktlarla tənzimlənməkdədir. Ancaq bu, o demək deyil ki, kimlərsə hətta ən adi bir məişət məsələsini sonradan siyasiləşdirməlidir və buna görə qanunları pozmalıdır. Fakt budur ki, bu məsələdə uğursuz siyasi manipulyasiya cəhdləri mövcuddur. Bu sayaq hadisələrdə bəlli adamların meydana atılması da artıq təəccüb doğurmur. Diqqət yetirin, artıq kimlikləri bəlli olanlar arasında Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli, Mehman Əliyev və s. kimi subyektlər də var ki, onların hər birinin fəaliyyətində açıq-aşkar anti-Azərbaycan, antimilli xarakterli faktlar mövcuddur. Yəni bu gün dövlətimizin maraqları əleyhinə hər hansı bir ajiotaj yaradılırsa, onlar dərhal ortalığa çıxırlar. Halbuki, onların heç birinin nə xalq, nə də dövlət maraqlarından danışmağa haqları yoxdur".**



"Səs" qəzetinin baş redaktorunun sözlərinə görə, M.Hüseynovun ətrafında müəyyən cinahlar tərəfindən başladılan siyasi oyunbazlıqlardan maksimum şəkildə faydalanmağa çalışan bir sıra beynəlxalq qurumlar həmin addımlarını atmamışdan öncə hadisələrin təhlilini aparmalı və dolğun, məntiqli nəticələrə gəlməlidirlər: **"Əks halda, həmin təşkilatlar da öz reytinqlərinin aşağı düşəcəyini yaşamış olacaqlar. Çünki öncəki illərdə də belə olub. Ümumiyyətlə, M.Hüseynovun, sadəcə, asan istifadə edilən alət qismində ölkəmizin maraqlarına qarşı istifadə edilməsi və bu istifadədən güdülən kirli məqsədlər heç bir halda gerçəkləşməyəcək. Sağlam düşüncəli vətəndaşlarımız da, əlbəttə ki, belə süni səs-küylərə dəstək verməyib, verməyəcək də. Antimilli qüvvələrin növbəti uğursuzluqları da məhz M.Hüseynov məsələsində öz təsdiqini tapacaq. Azərbaycan hüquqi dövlətdir və bu dövlətin qanunlarının tənzimlənməsinə kimsə - nə daxili, nə də xarici qüvvələr müdaxilə edə bilməzlər. Buna onların nə gücü, nə də qüvvələri çatmaz".**

# Elçin Mirzəbəyli: Karaqandada baş verən son hadisə erməni millətçiliyinin simasının dəyişmədiyini sübut edir

Ermənilərin Qazaxıstanın Karaqanda şəhərində qazax millətinə mənsub olan bir nəfəri etnik zəmində öldürmələri, üç nəfərə isə ağır bədən xəsarətləri yetirmələri bir daha onların şüurunda kök salmış radikal millətçiliyin, faşizm ideologiyasının nə qədər təhlükəli olduğunu nümayiş etdirir. Şübhəsiz ki, Qazaxıstanda baş verən cinayət erməni millətçilərinin Azərbaycan-Qazaxıstan münasibətlərinə, rəsmi Astananın Aprel döyüşlərindən sonra, həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində nümayiş etdirdiyi ədalətli mövqeyə verilən reaksiyadır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

Ekspert qeyd edib ki, terrorun, qanlı cinayətlərin öz niyyətlərinə çatmaq üçün ermənilərin əlində silah olduğunu tarixi faktlar da sübuta yetirir. Yüz ildən artıqdır ki, ermənilər Mərkəzi Asiyanın yerli xalqlarına qarşı cinayətlər, qanlı terror aktları törədirlər.



Bu cinayətlər Fərqanədən Qarabağa, Qarsdan Urmiyaya kimi geniş bir coğrafiyanı əhatə edir. Bütün bu cinayətlərin arxasında erməni Qriqoryan kilsəsindən və ideoloji mərkəzlərdən körüklənən saxta, amansız "böyük Ermənistan" xülyası dayanır.

Siyasi ekspert Qazaxıstanda baş verən son hadisənin erməni millətçiliyinin simasının dəyişmədiyini göstərdiyini bildirib. Onlar 100 il əvvəl Fərqanə vadisində, Margilan, Əndican, Namanqan, Qars, İğdır, Qarabağ, Quba, Bakı, Şamaxı, Təbriz, Zəncan, Urmiyada kim idilərsə bu gün də eyni cinayətkar mahiyyətin daşıyıcılarıdır.

E.Mirzəbəyli qeyd edib ki, erməni millətçiliyi faşizmdən daha təhlükəli, amansız və sağalması mümkün olmayan xəstəlikdir. Övladlarını 100 ildən çoxdur ki, "ən gözəl türk ölü türkdür" kimi amansız bir ideologiya ilə böyüdən, zombiləşdirən valideynlərin yetişdirdiyi bir nəsil var qarşımızda. Ermənilər təkcə türk xalqlarına qənim kəsilməyiblər, onların digər xalqlara, o cümlədən gürcülərə, ruslara, yəhudilərə, farslara qarşı törətdikləri cinayətlər də bütün millətlərə qarşı düşmən mövqedə dayandıqlarını sübuta yetirir.

Ekspertin fikrincə, Qazaxıstanda baş verən hadisə bütün bölgə xalqları üçün həyəcan siqnalı olmalıdır. Erməni millətçiliyinin kökünü kəsməyin, bu ideologiyanı Hitler faşizmi kimi tarixin arxivinə göndərməyin yolu onların Qarabağ iddialarına, təcavüzkarlığına son qoymaqdan keçir.

# Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib



Yanvarın 8-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşlarla növbəti görüş olub. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə müdirləri və departament direktorları vətəndaşları qəbul ediblər.

Qəbula gələnlərin əksəriyyəti, həmişəki kimi, əsasən məcburi köçkün vətəndaşlar olublar. Onlar mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məcburi köçkün statusunun verilməsi, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Vətəndaşlara bildirilib ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır. Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşların normal şəraitlə təmin edilməsini mühüm vəzifə kimi qarşıya qoyub. İndiyədək məcburi köçkünlər üçün yüzdən çox qəsəbə salınıb. Bu məqsədlə yeni yaşayış komplekslərinin tikintisi davam etdirilir. Həyata keçirilən tədbirlər onu göstərir ki, heç bir məcburi köçkün ailəsi dövlətin diqqət və qayğısından kənarda qalmayacaq.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Bakı və Sumqayıtda ən ağır şəraitdə, qəzalı vəziyyətdə olan bina və tikililərdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrası uğurla davam etdirilir. Yeni ildə də məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, maddi rifah halının yüksəldilməsi üçün dövlət büdcəsindən vəsait ayrılıb.

Məcburi köçkünlərin müraciətlərində qaldırılan məsələlərin həlli ilə bağlı Dövlət Komitəsinin müvafiq strukturlarına konkret tapşırıqlar verilib.

# Hesablama Palatasında nəzarət tədbirləri üzrə analitik arayış və auditor hesabatları müzakirə olunub

Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu ildə keçirilən ilk kollegiya iclasında bir sıra həyata keçirilmiş nəzarət tədbirləri üzrə analitik arayış və auditor hesabatları müzakirə olunub. Arayış və auditor hesabatları arasında "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna daxilolmaların hesablanılması, ödənilməsi və xərclərdən istifadə" mövzusunda təhlilə dair; dövlət büdcəsinin əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılan vəsaitlərin istifadəsinin auditinə dair; Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Şəmkir rayon şöbəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin və şöbənin məcburi dövlət sosial sığortası üzrə gəlirlərinin və xərclərinin icrasının auditinə dair; dövlət büdcəsindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ayrılan vəsaitlərin istifadəsinin auditinə dair hesabatlar yer alıb.



Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda hər bir nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiq olunub. Həmin qərarların icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına təqdimatların göndərilməsi və audit tədbirlərinin nəticələri barədə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması qərara alınıb.

İclasda aparılmış audit tədbirlərinin nəticələri üzrə təqdimatların icrası vəziyyəti barədə auditorların məlumatı dinlənilib.

# *Məhəmməd İbrahim Əl-Şeybani*: Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr dinamik şəkildə inkişaf edir



Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərindəki baş konsulu Cavidan Hüseynov Dubay Hökmdarı Divanının (Administrasiyasının) baş direktoru Məhəmməd İbrahim Əl-Şeybani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə baş konsul Azərbaycan ilə BƏƏ arasında əlaqələrin tarixi, dini və mədəni köklərə bağlılığı barədə danışıb, Dubay Əmirliyi ilə münasibətlərin inkişaf etdiyini vurğulayıb. Hər iki ölkə rəhbərliyinin bu əlaqələrin qurulması və möhkəmləndirilməsində rolunu qeyd edən baş konsul Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Xəlifə bin Zayed Əl Nəhyanın rəhbərliyi ilə münasibətlərin dinamik inkişaf etdiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında turizm, mədəniyyət, ticarət və s. sahələrdə əməkdaşlıq üçün geniş potensial olduğunu vurğulayan diplomat turist sayında müşahidə olunan artımın, həyata keçirilən mühüm mədəni tədbirlərin, o cümlədən bu yaxınlarda Dubay şəhərində Azərbaycan Ticarət Evinin açılmasının dost və qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd edib.

Məhəmməd İbrahim Əl-Şeybani, öz növbəsində, iki ölkə arasında müxtəlif sahələrdə dinamik şəkildə inkişaf edən əməkdaşlığın mövcud olduğunu bildirib. O, daha öncə bir neçə dəfə Azərbaycana səfər etdiyini və bu səfərlərin onda xoş təəssürat oyatdığını diqqətə çatdırıb. Baş direktor təhlükəsizlik, halal ərzaq məhsulları, əlverişli iqlim və məsafənin yaxınlığı kimi üstünlüklərə sahib olması səbəbindən hazırda Azərbaycanın ərəb turistlərin əsas səyahət məkanlarından biri olduğunu söyləyib. Daha sonra o, Azərbaycan ilə BƏƏ arasında hava uçuşları ilə maraqlanıb.

Baş konsul C.Hüseynov hazırda "Azərbaycan Hava Yolları", "Etihad Airways", "Fly Dubai" və "Air Arabia" şirkətlərinin ölkələrimiz arasında birbaşa uçuşlar həyata keçirdiyini bildirib, statistik göstəricilərə əsasən ərəb ölkələri arasında Azərbaycana ən çox səfər edən turistlərin BƏƏ-dən olduğunu qeyd edib.

# Kənd təsərrüfatı startaplarına dəstək veriləcək




Yanvarın 8-də Elektron Hökumətin İnkişafı Mərkəzində Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi tərəfindən reallaşdırılacaq "Kənd təsərrüfatı texnologiyaları üzrə startapların akselerasiya proqramı"nın təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin innovasiyalar üzrə müşaviri Şəbnəm Məmmədova nazirlik tərəfindən aqrar sahədə innovasiyaların tətbiqi üzrə müxtəlif tədbirlərin həyata keçirildiyini vurğulayıb. O, bildirib ki, həyata keçirilən tədbirlər sırasında cari ildə ilk olaraq "Kənd təsərrüfatı texnologiyaları üzrə startapların akselerasiya proqramı"nın həyata keçirilməsinə başlanılıb. Yanvarın 5-dən 20-dək proqrama qəbul elan olunub.

Şəbnəm Məmmədova, həmçinin aqrar sahədə innovasiya və yeni texnologiyaların tətbiqi üzrə startaplara başqa istiqamətlərdə də dəstəyin göstərilməsinin nəzərdə tutulduğunu qeyd edib. O, bu layihədən sonra "Gələcəyin fermeri" layihəsinin həyata keçiriləcəyini də diqqətə çatdırıb.

**əsasən innovativ tərkibli layihələri dəstəkləmək məqsədi daşıyır. Üçaylıq bir proqramdır. Burada əsas məqsəd Kənd Təsərrüfatı Nazirliyində həyata keçirilən innovativ layihələrə startapların dəstəyini əlavə etməkdir. Seçimlər yanvarın 21-də yekunlaşacaq. Proqrama təxminən 30-40 müraciətin olacağı gözlənilir. Onlar arasından isə 5 komanda seçiləcək. Seçilən beş startap investorların qarşısına çıxarılacaq. Xarici investorları da bu işə cəlb etməyi düşünürük".**




"INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin direktoru Məmməd Kərimov mərkəz tərəfindən həyata keçirilən tədbirlər, o cümlədən startaplara dəstək mexanizmlərindən bəhs edib. Direktor qeyd edib ki, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə həyata keçirilən proqram aqrar startapçıların innovativ ideyalarının reallaşması üçün əlverişli şərait yaradacaq.

O, bildirib: **"Layihə daha çox kənd təsərrüfatı sahəsində öz ideyası və müxtəlif təşəbbüsləri olan**

Görüş tərəflər arasında gələcək əməkdaşlıq perspektivləri, həmçinin kənd təsərrüfatı sahəsində ideya sahiblərinə digər dəstək və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi istiqamətində müzakirələrlə davam etdirilib.

Qeyd edək ki, "INNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. O, Kovörkinq, İnkubasiya, Akselerasiya və İnformasiya Texnologiyaları Təlim-Tədris Mərkəzindən ibarətdir.

# Tərtərdə modul tipli iki məktəb binası quraşdırılır

Ölkəmizdə təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Qəsəbə və kəndlərdə yeni-yeni məktəb binaları tikilib istifadəyə verilir, mövcud binalar isə əsaslı təmir olunur.

Son illərdə respubikamızda ənənəvi məktəb binalarının inşası ilə yanaşı, modul tipli məktəb binalarının quraşdırılması da həyata keçirilir. Modul tipli məktəb binalarının üstünlüyü onların azməsrəfli olması, qısa müddətdə istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun rahatlıqla azaldılıb-artırılmasıdır. Binaların tikintisində əsasən yerli istehsal olan məhsullardan istifadə edilir.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, modul tipli məktəb binalarından ikisi hazırda Tərtər rayonunda quraşdırılır. Tikinti-quraşdırma işləri Prezident İlham Əliyevin "Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" 2018-ci il 16 fevral tarixli Sərəncamı ilə ayrılan vəsait hesabına həyata keçirilir.

Kovdadıq kənd tam ibtidai məktəbi üçün quraşdırılan bina 20, Zolgörən ümumi orta məktəbi üçün qurulan bina isə 56 şagird yerlikdir. Tikinti-quraşdırma işləri Təhsil Nazirliyinin sifarişi ilə aparılır. Artıq binaların bünövrəsi tökülüb və quraşdırma işləri görülür. Binalar müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin ediləcək, həyətlərində abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq.

Qeyd edək ki, ötən il Tərtər rayonunun Bayandur və Poladlı kəndlərində də modul tipli məktəb binaları quraşdırılıb.

# Azərbaycan startapları üçün "Bakı-Boston Startap Veb Konfransı 1.0." təşkil ediləcək

ABŞ-Azərbaycan Ticarət Palatası, Azərbaycan Yüksək Texnologiyalar Parkı və İsrailin ABŞ-ın Nyu-İnqlənd ərazisində baş konsulluğunun birgə təşkilatçılığı ilə Azərbaycan startapları üçün kapitallaşma və bazara giriş strategiyalarına dair "Bakı-Boston Startap Veb Konfransı 1.0." təşkil ediləcək.




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində Yüksək Texnologiyalar Parkından AZƏRTAC-a bildirilib ki, yanvarın 9-da Bakı vaxtı ilə saat 18:00-da Nyu-İnqlənd ərazisində İsrailin baş konsulluğunun iqtisadi məsələlər şöbəsinin direktoru Austin Sadagatpur ilə bazara giriş strategiyaları və Bostonda israilli bizneslərin uğurları barədə müzakirələr aparılacaq.

Azərbaycandan konfransa qoşulmaq istəyənlər Azərbaycan Yüksək Texnologiyalar Parkına (High Tech Park Azerbaijan) müraciət etmələri xahiş edilir.

Qeyd edək ki, Boston şəhəri ABŞ-ın yüksək texnologiyalar üzrə ixtisaslaşmış əsas şəhərlərindəndir. Bu şəhər elmi araşdırmalar və inkişaf (R&D) sahəsində çalışanların sayına görə ABŞ-ın orta göstəricisindən 2 dəfə yarım yüksək nəticəyə malikdir. Boston şəhəri, eyni zamanda, dünya üzrə vençur kapitalının cəlb edilməsinə görə aparıcı sıralardadır.

Müstəqil araşdırmalara görə, israillilərin təsis etdiyi bizneslər Boston və ümumilikdə, Massaçusets ştatının sənayesində əsas aparıcılardandır. Yalnız 2015-ci ildə bu şirkətlər iqtisadiyyata 9,3 milyard ABŞ dolları həcmində birbaşa gəlir qazandırıb. Bu şirkətlərin ştat iqtisadiyyatına ümumi təsiri isə 18,1 milyard ABŞ dolları həcmində ölçülür. 2013-2015-ci illər ərzində həmin şirkətlər 1,2 milyard ABŞ dolları həcmində vençur kapital cəlb etməyə nail olublar.

# Radikal ünsürlərin Mehman Hüseynova "dəstək" kampaniyası onların əsl məqsədlərini üzə çıxardı

*Yaxud, Avropada mitinqlərin dağıdılması, jurnalistlərin həbsi, insan haqlarının pozulması faktlarını görməzdən gələn bəzi beynəlxalq qurumlar və hüquq müdafiə təşkilatları Azərbaycanda kiçik bir hadisəni qərəzli şəkildə qabardır, ona siyasi rəng verirlər*



Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı güclü, dünyada böyük nüfuza malik, öz milli maraqlarını müdafiə etməyi bacaran dövlət qurucuIuğunu başlıca vəzifə hesab edir və bu istiqamətdə ardıcıl, prinsipial siyasət həyata keçirir. Demokratik prinsiplərə sədaqət, insan hüquq və azadlıqlarına hörmət ölkəmizdə vətəndaş həmrəyliyinin daha da güclənməsinə yol açır. O da bəllidir ki, Azərbaycanın inkişafı, ildən-ilə güclənməsi, müstəqil xarici siyasət kursu yürütməsi hər zaman antimilli mərkəzləri, anti-azərbaycançı dairələri narahat edir. Odur ki, həmin dairələr zaman-zaman fərqli çirkin kampaniyalarla, yalan təbliğatla gündəmə gəlməyə, ölkəmizin uğurlarına kölgə salmağa çalışırlar. Bu prosesdə isə 25 ildir müxalifətçilik adı altında radikal və destruktiv fəaliyyətlə məşğul olan antimilli qruplar xüsusi fəallıq göstərir, Azərbaycanın milli maraqlarına, dövlətə və xalqa qarşı mübarizədə ən çirkin vasitələrdən istifadə edirlər.

Yeri gəlmişkən, istər ölkə daxilindəki, istərsə də ölkə xaricindəki satqın qrupların, radikal ünsürlərin əsl siması yenidən Azərbaycan cəmiyyətinə bəlli olub. Bir neçə gündür ki, xarici antimilli mərkəzlərin, ermənipərəst dairələrin ortaya atdığı Mehman Hüseynov şousuna "dəstək" verməklə həmin şəxslər bir daha hansı dairələrə qulluq etdiklərini təsdiqləyirlər. Cinayət törədərək haqlı cəzasını almış bir şəxslə bağlı yalan məlumatlar əsasında kampaniya təşkil etmək, bu hadisəni az qala dövlət əhəmiyyətli məsələyə çevirmək cəhdi bu insanların nə qədər qeyri-ciddi olduqlarını göstərir.

### ANTİMİLLİ QRUPLAR VƏ ONLARIN XARİCDƏKİ HAVADARLARI MEHMAN HÜSEYNOV ŞOUSUNDAN AZƏRBAYCANIN ƏLEYHİNƏ NÖVBƏTİ KAMPANİYAYA BAŞLAMAQ ÜÇÜN FÜRSƏT KİMİ İSTİFADƏ EDİRLƏR

Xatırladaq ki, Mehman Hüseynov 2017-ci il martın 3-də həbs olunub. O, Suraxanı rayon Məhkəməsinin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib. Ötən il dekabrın 26-da isə Penitensiar Xidmət açıqlama yayaraq bəyan edib ki, 14 saylı cəzaçəkmə müəssisəsində plan üzrə aparılan növbəti ümumi axtarış-baxış tədbirləri zamanı məhkum Hüseynov Mehman Rafiq oğlu müəssisənin Rejim-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə leytenantı Abdalov Əli Eləddin oğlunun qanuni tələblərinə tabe olmayaraq ona qarşı zor tətbiq edib, fiziki müqavimət göstərərək sonuncuya bədən xəsarəti yetirib, xidməti otaqda olan əşyaları dağıdaraq sındırıb. Bu faktla bağlı Bakı şəhəri Qaradağ rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci maddəsi (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmə) ilə cinayət işi başlanıb.

Vurğulanmalıdır ki, hüququn aliliyinə hər zaman hörmətlə yanaşan Azərbaycan dövlətində bütün vətəndaşlar qanun qarşısında eyni məsuliyyətə malikdirlər. Bu mənada, Mehman Hüseynovun əməli də ölkə qanunları ilə araşdırılmalı və məhz qanunun tələbi ilə məsuliyyəti müəyyənləşdirilməlidir.

Antimilli qruplar və onların xaricdəki havadarları isə bu hadisədən Azərbaycanın əleyhinə növbəti kampaniyaya başlamaq üçün fürsət kimi istifadə edirlər. Məsələ elə təqdim edilir ki, guya M.Hüseynov quru aclıq keçirir, səhhəti kritik durumdadır.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin məlumatına əsasən, Mehman Hüseynov aclıq aksiyası keçirmir və səhhəti qaydasındadır. Onun qidalandığı, vəkili ilə görüşdüyü, ailə üzvləri ilə telefonla danışdığı rəsmi məlumatda təsdiqini tapır.

### SOROSUN MALİYYƏSİ İLƏ İŞLƏYƏN ANTİMİLLİ ÜNSÜRLƏRİN APARDIQLARI KAMPANİYA VƏ İRƏLİ SÜRDÜKLƏRİ İDDİALAR FİKSİYADAN BAŞQA BİR ŞEY DEYİL

Mehman Hüseynov ətrafında şou yaratmaq istəyənlər onu "jurnalist" kimi qələmə verməyə və ölkəmizə qarşı aparılan çirkin kampaniyanı həm də bu yalan üzərində qurmağa çalışırlar. Amma bu, faktdır ki, Mehman Hüseynov jurnalist deyil. Onu mediaya bağlayan yeganə səbəb isə qardaşı Emin Hüseynovun Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu adlı qurum yaratmasıdır. Vurğulayaq ki, qardaşı gizli yolla başqa ölkəyə qaçırıldıqdan sonra M.Hüseynovun da mühacir kimi xaricə çıxmasını təmin etmək niyyəti güdülüb. Bu səbəbdən də onun guya "bloger" olması və hakimiyyəti tənqid etdiyinə görə təzyiqlərlə üzləşməsi barədə rəy formalaşdırmağa cəhd göstərilib.

Digər tərəfdən, Mehman Hüseynovun guya "aclıq aksiyası" keçirdiyini iddia edənlərin özləri belə bu yalana inanmırlar. Bəli, aclıq aksiyası siyasi üsuldur və dünyanın müxtəlif ölkələrində bu metoddan istifadə olunur. Vaxtilə müxalifət düşərgəsini təmsil edən bir sıra şəxslər müxtəlif səbəblərdən bu yola əl atır, aclıq aksiyası keçirdiklərini bəyan edir, bu hadisə media tərəfindən ciddi piar olunurdu. Sonra isə müəyyənləşirdi ki, gündüz aclıq keçirdiklərini bəyan edən şəxslər əslində Çarlz Hayder kimi gizlincə qidalanırlar. Mehman Hüseynovla bağlı isə rəsmi məlumat var və onun hər hansı bir aksiya keçirmədiyi bəyan edilib. Bununla belə, gündəmə gəlmək, ermənipərəst, antimilli mərkəzlərdən pul qoparmaq üçün növbəyə düzülən radikal ünsürlər bu çirkin kampaniyadan əl çəkmək istəmirlər. Hazırda Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Həbib Müntəzir, Ramiz Yunus, Arif Məmmədov, Sevinc Osmanqızı, Orduxan Temirxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Nahid Cəfərov və digər bu kimi Sorosun maliyyəsi ilə işləyən antimilli ünsürlərin apardıqları kampaniya və irəli sürdükləri iddialar isə fiksiyadan başqa bir şey deyil.

### İNSAN HAQLARINA HÖRMƏT TƏLƏB EDƏN BU ÜNSÜRLƏR MEHMAN HÜSEYNOVLA İNSİDENTDƏ ZƏRƏR ÇƏKƏN, XƏSARƏT ALAN ORQAN ƏMƏKDAŞI ƏLİ ABDALOVU MƏNƏVİ TERRORA MƏRUZ QOYURLAR

Bir məsələyə də toxunmaq lazımdır ki, ayrı-ayrı hakimiyyət nümayəndələrinə qarşı kampaniya aparan bu şəxslər tərbiyə, əxlaq normalarından uzaq olduqlarını bir daha nümayiş etdirirlər. Bu gün hakimiyyətə, dövlətə qarşı belə çirkin kampaniya aparanlar məsələyə yenidən məhkəmədə baxılmasını, ən azından məsələnin xarici ekspertlərin tərəfindən araşdırılmasını tələb edə bilərdilər. Ancaq insan haqlarına hörmət tələb edən bu ünsürlər Mehman Hüseynovla insidentdə zərər çəkən, xəsarət alan orqan əməkdaşı Əli Abdalovu mənəvi terrora məruz qoyurlar. Bunu o kəslər edirlər ki, öz aləmlərində guya Mehmanın simasında bəşəri hüquq və azadlıqları qoruyurlar.

Əslində bu kampaniyanın arxasında kimlərin durduğu, məqsədin Azərbaycan dövlətinə təzyiq göstərmək cəhdi olduğu bəllidir. Təsadüfi deyil ki, Viktoriya Nulandın "uşaqlarının" çirkab kampaniyası ermənipərəst senator Marko Rubionun Azərbaycana qarşı açıqlaması və bu cəbhədə xüsusi yer tutan "The Washington Post" qəzetinin redaksiya məqaləsi ilə tamamlandı. Eyni şəbəkənin xaricdəki və Azərbaycandakı izləri çox aydın göründü.

Lakin antimilli şəbəkə və onların xaricdəki havadarları unudurlar və dəfələrlə sübut olunub ki, Azərbaycan dövləti ilə təzyiq vasitəsilə danışmaq, qarayaxma kampaniyası vasitəsilə onu güzəştə məcbur etmək mümkün deyil. Eləcə də Azərbaycan cəmiyyəti antimilli dairələrin ölində oyuncağa çevrilən radikal qaragüruhun ölkəmizə qarşı olanlarla eyni cəbhədə şahidinə çevrildi.

### "DEMOKRATİYA MÜDAFİƏÇİLƏRİ" AVROPA ÖLKƏLƏRİNDƏ KEÇİRİLƏN MİTİNQLƏRDƏ İNSAN HAQLARININ KOBUD ŞƏKİLDƏ POZULMASI FAKTLARINI SUSQUNLUQLA QARŞILAYIRLAR

Yeri gəlmişkən, Mehman Hüseynovla bağlı süni ajiotaj yaratmaq istəyən xarici antimilli mərkəzlərin, hətta özünü "insan hüquq və azadlıqlarının qoruyucusu" adlandıran bəzi qeyri-hökumət təşkilatlarının yalançı hayküylərinin ölkəmizə qarşı aparılan çirkin kampaniya olduğunu təsdiqləyən başqa faktlar da mövcuddur. Diqqət etsək görərik ki, ötən ilin ikinci yarısından başlayaraq məhz bir sıra Avropa ölkələrində mühüm kataklizmlər baş verməkdədir. Özlərini "sarı jiletlilər" adlandıran mitinqçilər Fransa, Portuqaliya, İspaniya, Belçika və başqa ölkələrdə aksiyalar keçirirlər. Bu aksiyalarda minlərlə mitinq iştirakçısı polis zorakılığına məruz qalıb, yüzlərlə insan həbs olunub. Eləcə də, yalnız bir faktı diqqətə çatdıraq ki, təkcə Fransada keçirilən aksiyalarda müşahidə olunan polis zorakılığı nəticəsində onlarla insan həyatını itirib, o cümlədən ağır bədən xəsarətləri alıb. Hətta mitinq iştirakçılarının üzərinə qaz bombaları atılıb, mitinq iştirakçılarına qarşı polis itlərindən də istifadə edilib. Bunu nəzərə alsaq, istər Fransada, istərsə də digər ölkələrdə keçirilən mitinqlərdə öz vəzifə borclarını yerinə yetirən KİV nümayəndələri də polis zorakılığından "nəsibini" alıb. Bir sözlə, Avropa ölkələrini caynağına alan bu mitinqlər insan hüquq və azadlıqlarının kütləvi pozulmasına dair faktlarla "zəngindir".

Görəsən, Mehman Hüseynovla bağlı yalanları əlində "bayraq" etməyə çalışan bəzi xarici antimilli mərkəzlər, o cümlədən, hüquq müdafiə təşkilatları, Avropa Şurası, Avropa İttifaqı, Avropa Parlamenti BMT nin əlaqədar qurumları Avropada baş verən bu zorakılıq halları, hüquq pozuntuluları, həmçinin jurnalistlərin həbsi ilə bağlı faktlara nə üçün göz yumur, səslərini çıxarmırlar? Amma Azərbaycanda kiçik bir hadisə xüsusi və qərəzli qaydada qabardılır, ona siyasi rəng verilir, əsassız ittihamlar irəli sürülür, ölkə antidemokratiyada ittiham olunur.

Eləcə də, demokratiya və insan haqlarından dayanmadan danışan, həmçininin "xüsusi komanda" şəklində fəallaşan 5-ci kolonun üzvləri - Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Orduxan Temirxan, Tural Sadıqlı və digərlərinin Avropada baş verənləri susqunluqla qarşılaması onların yalnız öz xaricdəki havadarlarının sifarişini yerinə yetirdikləri bir daha təsdiqləyir. Bu, həm də onu göstərir ki, həmin ünsürlər demokratik dəyərləri deyil, aldıqları və alacaqları qrantları düşünürlər.

**Pərviz SADAYOĞLU**

# Qazaxıstanda ermənilər tərəfindən gənc qazaxın öldürülməsi erməni millətçiliyinin iç üzünü növbəti dəfə ortaya qoydu

*Və ya "yaxşı türk ölü türkdür" ifadəsi ermənilər tərəfindən faşizm ideologiyasına xas şəkildə bütün türkdilli xalqlara şamil olunur*




Məlum olduğu kimi, bu ilin 1 yanvar tarixində - Yeni il gecəsi Qazaxıstan Respublikasının Karaqanda şəhərindəki ermənilərə məxsus olan "Drevniy Rim" restoranında cinayət hadisəsi baş verib. Qeyd olunan iaşə obyektində Yeni ili qarşılamaq üçün toplaşmış ermənilər və qazaxlar arasında mübahisə yaranıb, daha sonra restoranın həyətində dava formasında davam etdirilib və nəticədə 1 qazax gənc, 1995-ci il təvəllüdlü Raxımjan Janseyt öldürülüb, digər 3 qazax müxtəlif xəsarətlər alıb. Hadisə ilə bağlı videogörüntülər də sosial şəbəkələrdə yayılıb. Hüquq-mühafizə orqanları tərəfindən qətl hadisəsini törətmiş və bu cinayətdə təqsirli bilinən milliyyətcə erməni iki nəfər - Malxasyan Torqom Manveloviç, Malxasyan Soxak Samveloviç və qazax milliyyətli 1 nəfər - Nadırbekov Kair Xamitoviç tutularaq barələrində həbs qətimkan tədbiri seçilib, erməni milliyyətli digər 1 nəfər - Qururyan Narek haqqında isə axtarış elan edilib. Bu şəxslər barəsində məlumat hadisədən iki gün sonra mətbuatda rəsmi olaraq dərc olunub.

Qeyd edək ki, baş vermiş bu cinayət hadisəsi, yəni ermənilərin mütəşəkkil dəstə şəklində etnik qazaxı öldürməsi Qazaxıstan ictimaiyyətində haqlı narazılığa səbəb olub. Bu da səbəbsiz deyil. Əksər ekspertlərin də vurğuladıqları kimi, Qazaxıstanda yaşayan ermənilərin mütəşəkkil kriminal qruplaşmalar yaratmaları, yerli qazaxlara qarşı ümumi türk etnosuna nifrətdən irəli gələrək həqarətli və kinayəli yanaşmaları geniş yayılmış haldır və heç kimə sirr deyil. Daha dəqiq desək, "yaxşı türk ölü türkdür" ifadəsi ermənilər tərəfindən faşizm ideologiyasına xas şəkildə bütün türkdilli xalqlara şamil olunur və qazaxlar da bu baxımdan istisna deyillər.

Belə ki, Qazaxıstan mediasında və sosial şəbəkə seqmentində ermənilərin bu ölkənin adət-ənənələrinə hörmətsizliyi, qazaxlara yuxarıdan aşağı baxmaları və özlərini "ari" irqi kimi təqdim etmək cəhdləri barədə dəfələrlə məlumat verilib. Həmin məlumatlarda da qeyd olunduğu kimi, digər ölkələrdə olduğu kimi, Qazaxıstanda olan erməni mənşəli kriminal və mütəşəkkil qruplaşmalar da əslində bu ölkə ərazisində fəaliyyət göstərən 5-ci kolondur. Sovetlər dövründə Qazaxıstan rəhbərliyində olan erməni mənşəli rəhbər şəxslərin qazax xalqına qarşı törətdiyi etnik terroru və soyqırımı hər kəs çox yaxşı xatırlayır.

Eyni zamanda Azərbaycanın da faciəvi təcrübəsi onu göstərir ki, ermənilər cəmiyyətin içərisində yaşayaraq fürsət güdür və zəruri halda xəyanət edərək içəridən zərbə vururlar. Məlum olduğu kimi, tarix boyu ermənilər Azərbaycan xalqına qarşı qətliamlar törədiblər. Ötən əsrin əvvələrində, 1905-ci il, 1918-ci ilin mart qırğınları buna sübutdur. 1992-ci ilin fevral ayında ermənilərin törətdiyi Xocalı soyqırımı isə bütövlükdə bəşəriyyətə qarşı amansız cinayətdir.

Beləliklə, Mərkəzi Asiya ölkələrində o cümlədən Qazaxıstanda yaşayan ermənilərin də əməllərinə sıradan olan adi hal kimi baxılmamalı, tarixdən və yaxın coğrafiyada baş verən hadisələrdən nəticə çıxarılmalıdır. Qeyd edək ki, həmin faktlar cinayətlərin zaman-zaman ermənilər tərəfindən türk soyuna qarşı məqsədli şəkildə törədildiyini sübut edir. Məsələn tarixdən bəlli olduğu kimi, 1918-ci il martın 31-də ermənilərin Azərbaycanda törətdiyi soyqırımdan 1 ay əvvəl - fevralın 22-də Fərqanə vadisində də ermənilər tərəfindən soyqırımın törədilməsinə başlanılıb. Bunun nəticəsində 180-ə yaxın kənd məhv edilib, 3 ay ərzində 35 minə yaxın dinc əhali vəhşicəsinə öldürülüb.

Ümumiyyətlə, Türküstanda daşnakların törətdikləri vəhşiliklər haqqında bir çox özbək tarixçiləri və publisistləri yazıblar, halbuki, bu mövzu Sovet zamanında qadağa altında idi. Məsələ ondadır ki, bolşeviklər Türküstan muxtariyyəti hökumətindən silahı yerə qoymağı, səlahiyyətlərindən əl çəkməyi və Sovet hakimiyyətini tanımağı tələb etmişdilər. Hökumət isə bu qanunsuz tələbləri cavabsız qoymuşdu. Və onda bolşeviklər cəza əməliyyatlarına start vermiş, həm də bunu əsas etibarilə dinc əhaliyə qarşı icra etmişdilər. Həmin vaxt əsas cəza vermək funksiyalarını isə, sonralar Qafqazda olduğu kimi, ermənilərin millətçi-şovinist partiyası "Daşnaksutyun"un silahlı dəstələri öz üzərinə götürmüşdü. Belə ki, daşnaklar Kokand şəhərini bütünlüklə yandırıb məhv etmiş, şahidlərin söylədiyinə görə, "ölülər şəhərinə çevirmişdilər".

Bundan əlavə, ermənilərin Anadolu türklərinə qarşı törətdikləri qırğınlar da tarixinin faciəvi səhifələrini təşkil edir. Xüsusilə I Dünya müharibəsi illərində "Böyük Ermənistan" xülyası ilə Osmanlı dövlətinə xəyanət edərək düşmən cəbhəsinə qoşulan ermənilərin qanlı əməllərini qeyd etmək lazımdır. Belə ki, 1915-ci ildə rus ordusunun Şərqi Anadoluya daxil olması ilə erməni silahlı dəstələri Van, Bitlis, Ərzurum, Ərzincan, Qars və bir çox başqa vilayətlərdə amansız qırğınlar törədiblər, bəzi vilayətlər yerlə yeksan edilib. Bu hadisələr zamanı on minlərlə günahsız insan qətlə yetirilib.

Beləliklə, bu və ya digər faktlar erməni millətçiliyinin əsas hədəfinin məhz türk xalqları olduğunu, ermənilərin ümumi türk etnosuna nifrət üzərində kökləndiklərini bir daha təsdiq edir. Bu baxımdan, Qazaxıstanda baş vermiş son hadisə də erməni xislətinin, erməni millətçiliyinin iç üzünü növbəti dəfə ortaya qoydu.

**Nardar BAYRAMLI**

# "UNEC Ekspert": rezerv valyuta, beynəlxalq ticarətdə milli valyuta




"UNEC Ekspert" jurnalının 6-cı nömrəsi çapdan çıxıb.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, ildə iki dəfə nəşr olunan jurnalın yeni sayında rezerv valyutalar, pul köçürmələri, beynəlxalq ticarətdə milli valyuta mövzularına həsr edilən məqalələr yer alıb. Oxucular rezerv valyutalarla bağlı "dünya rezerv valyutalarının sayı artırılmalıdırmı?", "dollar rezerv valyuta statusunu itirirmi?" və bu istiqamətdə digər suallara cavab tapa biləcəklər. Pul köçürmələri ilə maraqlananlar isə müasir dövrdə internet bank sistemi xidmətləri, ölkədə elektron pulların istifadəsi və tənzimlənməsi problemləri, eyni zamanda, Azərbaycanda beynəlxalq pul köçürmələri bazarının mövcud vəziyyəti və perspektivləri ilə tanış olacaqlar. Jurnalda beynəlxalq ticarətdə milli valyuta ilə bağlı UNEC-in ekspertlərinin dollarlaşma, avrolaşma və kiçik ölkələrin riskləri, neft ixrac edən ölkələrin dollardan asılılıq problemi, neftin milli valyuta ilə satılması perspektivləri, eləcə də digər aktual məsələlərlə bağlı araşdırmaları dərc olunub.

# Qoca və ağılsız Peykkonun şarlatanlığı...

*Yaxud Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli kimi antimilli ünsürlər Azərbaycan xalqının dünəni, bu günü və sabahı ola bilməzlər*



Antimilli şəbəkənin və onun xaricdəki havadarlarının son günlər həbsdə olan Mehman Hüseynovla bağlı Azərbaycana qarşı həyata keçirdiyi qarayaxma kampaniyasının detalları və məqsədləri ölkəmizin ictimai-siyasi gündəmini az-çox izləyən hər kəs üçün bəllidir. Bu tip proseslər həmişə eyni ssenari üzrə baş verir. Əvvəlcə bir diletant müəyyənləşdirilir, onun guya hansısa haqsızlığa qarşı müqavimət göstərən, buna görə də ciddi təzyiqlərə məruz qalan dissident olması yönündə ictimai rəy formalaşdırmağa çalışılır, bir barmaq toxunuşu ilə bu oyunun bütün daşları domino effekti ilə hərəkətə gətirilir, "qəhrəman"ın müdafiə şuraları yaradılır, Azərbaycan dövlətçiliyinə qarşı şəbəkələşmiş qrupun yerli və xaricdəki təmsilçiləri bir-birinin ardınca hədyanlar yağdırmağa, böhtan danışmağa başlayır, ən nəhayət, xaricdəki təzyiq qruplarına bağlı media orqanları qərəzli reportajlar yayımlayır. İndi də yenə eyni oyun eyni ssenari üzrə oynanılır.

## "SOROSUN UŞAQLARI" FÜRSƏTİ QAZANC İMKANINA ÇEVİRMƏK ÜÇÜN HƏR CÜR RİYAKARLIĞA ƏL ATIRLAR

Törətdiyi cinayət hadisəsinə görə həbs olunmuş və bu əməli də məhkəmə qərarı ilə sübuta yetirilmiş Mehman Hüseynovun bir neçə gün öncə, "aclıq aksiyası" keçirməsi yönündə iddialar ortaya atıldı. Ardınca da xaricdəki anti-azərbaycançı şəbəkə və onların ölkəmizdəki uzantıları hadisəni fürsət bilib Azərbaycanın əleyhinə növbəti kampaniyaya başladılar. Yenə də eyni simalar artıq qulaqları yağır etmiş nəqarəti söyləyirlər. Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli kimi siyasi mühitin qarınaltı yükünə çevrilmiş işbazlar, Həbib Müntəzir, Ramiz Yunus, Arif Məmmədov, Sevinc Osmanqızı, Orduxan Temirxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Nahid Cəfərov və digər bu kimi xaricdə məskən tutmuş "Sorosun uşaqları" fürsəti özləri üçün pul qazanmaq imkanına çevirməkdən ötrü hər cür riyakarlığa əl atırlar. Baxmayaraq ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti M.Hüseynovun aclıq aksiyası keçirməsi və səhhəti ilə bağlı hansısa problemin olmasını dərhal rəsmi şəkildə təkzib etdi, onun qidalandığını, vəkili ilə görüşdüyünü, ailə üzvləri ilə telefonla danışdığını bəyan etdi, yenə də "leş qoxusuna daraşmış yalavac quzğunlar qanadlarına dinclik vermirlər". Son olaraq isə prosesə ahıl yaşlarında ağıl tutulması yaşayan qoca kinossenarist Rüstəm İbrahimbəyov qoşulub...

## RÜSTƏM İBRAHİMBƏYOV AHIL ÇAĞINDA AĞIL TUTULMASI YAŞAYIR

Hər insan qocalığı bir cür yaşayır. Kimsə yaşa dolduqca kamilləşir, illərin, keçmişin hesab-kitabını doğru aparır, ağsaqqal kimi sanbalını qoruyur, bəzilərinin isə ötən illər ömrü kimi ağlını da, yaddaşını da əlindən alır, psixi və psixoloji cəhətdən ciddi əziyyət çəkir. Təəssüf ki, Rüstəm İbrahimbəyov da ömrünün ahıl çağını zamana məğlub olaraq keçirənlər sırasındadır. O, bütün həyatı boyu qazandıqlarını qoca vaxtında cəmi bir neçə ildə sovurub özünü də, nüfuzunu xərcləyərək sıfır nöqtəsinə lövbər salıb. Rüstəm İbrahimbəyovdan söz düşəndə həmişə finlərin nağıl qəhrəmanı qoca Peykko yadıma düşür. 2013-cü ildə Azərbaycanın radikal müxalifət düşərgəsinin "siyasi dələduzlar"ı onu az qala dənizlər sahibi, meşələr şahı kimi qələmə verməyə çalışsalar da, çox keçmədi ki, R.İbrahimbəyovun elə Peykko kimi ağılsız, gənc mattilərin şit zarafatlarına alət olan zavallı bir adamdan başqa heç kim olmadığı ortaya çıxdı.

Həyatının təxminən 70 ilə qədərini kinostudiyaların qaranlıq otaqlarında keçirən Rüstəm İbrahimbəyov nə zaman ki, studiya zirzəmilərini tərk edib havaya çıxmağa qərar verdi, o zamandan etibarən qoca kinossenarist natamamlıq sindromu, şəxsiyyət böhranı yaşamağa, özünü tapmaqda çətinlik çəkməyə başladı. Ona görə də mövsümdən-mövsümə dəyişikliyə uğradı, 2008-ci ildə "ziyalı" kimi başladığı ikinci həyatına 2013-cü ildən sonra "siyasətçi" kimi davam etməyə qərar verdi. Burada da özünü tapa bilməyən R.İbrahimbəyov "mən siyasətçi deyiləm" deyib sinəsini kənara çəksə də, dəyişən, inkişaf edən kino sənayesində də artıq nə ona, nə də onun çoxarvadlı kişi, çoxərli qadın obrazlarına yer olmadığını qətiləşdirdi. İndi bir həsir, bir Məmmədnəsir, bir də iflasa uğramış, xarabalığa çevrilmiş şərab biznesinin ziyanları ilə ortalıqda qalıb.

## KOR ATIN KOR NALBƏNDİ...

Deməli, səbəb aydındır, içində olduğu ağır dramatik durum, itirilmiş və əldən çıxmış keçmişin bitməyən həsrəti, mənsub olduğu xalqa qarşı içində daşıdığı kin və qəzəb R.İbrahimbəyovun soyuqqanlı və məntiqlə düşünüb doğru qərarlar verməsinə mane olur, onu bir yanlışdan başqa bir yanlışa doğru sürükləyir. Qoca kinossenarist indi də ağlınca Mehman Hüseynovun müdafiəsinə qalxıb. Amma "müdafiə mətni"ndə orta məktəb şagirdlərinin inşa yazılarında belə yer vermədikləri qədər üslub və mətn nöqsanlarına rast gəlinir. Amma məqsədimiz onun müraciətini sintaktik təhlil etmək deyil. Burada daha vacib və üzərində durulmalı məqam ondan ibarətdir ki, R.İbrahimbəyov Mehman Hüseynovla bağlı ölkə Prezidenti İlham Əliyevə müraciətində utanmadan erməni təəssübkeşi, qələmə aldığı "Daş yuxular" romanı ilə Azərbaycan xalqını təhqir edən, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli qırğınlara, soyqırımlarına az qala bəraət qazandıran Əkrəm Əylislini Azərbaycan xalqının keçmişi, kəmağıl, savadsız bir diletant olan Mehman Hüseynovu isə xalqımızın gələcəyi adlandırır. Təbii ki, R.İbrahimbəyovun xalqımıza qarşı belə təhqiramiz münasibəti təəccüblü deyil. Çünki Azərbaycan xalqına münasibətdə Ə.Əylisli ilə R.İbrahimbəyov həmişə eyni mövqedən çıxış edirlər. Xatırlayaq, hələ 90-cı illərin əvvəllərində xarici ölkə mediasına müsahibəsində Azərbaycanda ziyalı mühitinin olmadığını, bu mühitdə boğulduğunu söyləyən Əkrəm Əylisliyə dəstək verənlərdən biri də məhz R.İbrahimbəyov olmuşdu. O, 2008-ci ildə Rusiya mətbuatına müsahibəsində bir az da irəli gedərək ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilərin Bakını tərk etməsinə təəssüfünü gizlətməmiş, ermənilərsiz Bakının intellektual potensialının aşağı düşdüyünü, xalqın elitasının olmadığını iddia edərək, Azərbaycan xalqını təhqir etmişdi. Bədnam "Daş yuxular"a qarşı Azərbaycan ictimaiyyəti haqlı narazılığını bildirəndə, ona qarşı nifrətini ifadə edəndə də Ə.Əylisliyə yenə də qoca kinossenarist qucaq açmışdı. Tam əminliklə deyə bilərik ki, mahiyyət etibarilə Ə.Əylisli də, R.İbrahimbəyov da eyni əxlaq və mənəvi dəyərlərin daşıyıcılarıdır. Ona görə də İbrahimbəyovun Əkrəm Əylislinin müdafiəsinə qalxması kor atın kor nalbəndi olmaqdan başqa bir işə yaramır.

## ZƏNGİN TARİXİMİZDƏ RÜSTƏM İBRAHİMBƏYOVA VƏ ƏKRƏM ƏYLİSLİYƏ YER YOXDUR

Əlbəttə, Azərbaycan ədəbiyyatının, söz-fikir tarixinin çox böyük şəxsiyyətləri, dünya mənəvi irsinə adını qızıl hərflərlə yazdırmış böyük mütəfəkkirləri var və onlar, sadəcə, təmsil etdiyi xalqın pasportunu daşımır, yazdıqları, yaratdıqları ilə qlobal mahiyyət kəsb edirlər. Amma tam əminliklə söyləmək olar ki, bu zəngin tariximizdə Rüstəm İbrahimbəyova və Əkrəm Əylisliyə yer yoxdur. Onlar bu gün fiziki olaraq mövcud ola bilərlər, Allahın işinə qarışmırıq, bəlkə də, hələ neçə illər yaşayacaqlar, amma bu iki şəxsin ömrü Azərbaycan xalqının mənəvi zənginliklərinə heç nə qatmır. Onlar "fikir adamları" olaraq, Azərbaycan xalqının nə dünəni, nə bu günü, nə də sabahı ola bilməzlər. Hər ikisi də ermənilərlə bir zindana çəkic döyəcləməyə başlayanda bu mənəvi haqlarını itirib. Elə Mehman Hüseynov da Azərbaycanın gələcəyi olan savadlı, parlaq gənc nəslin nümayəndələrindən biri olmaq şansını çoxdan əldən verib. Azərbaycan xalqı öz gələcəyini vətənpərvər, intellektual, milli-mənəvi dəyərlərinə sahib çıxan və bu dəyərlərlə yaşamağı üstün tutan gənclərə etibar edir, xaricdən 3-5 manat ianə alıb dövlətini və xalqını təhqir edən şarlatanlara deyil!

**Aqşin ŞAHİNOĞLU**

# Paşinyan üçün güzəşt limiti tükənib

*Yerli ekspertlərin ümumi qənaətinə görə, 14 yanvardan sonra erməni cəmiyyəti ondan konkret iş tələb edəcək*

Ermənistanda hakimiyyəti ələ keçirən Nikol Paşinyan növbədənkənar parlament seçkilərini keçirməyə tələssə də, indi o, daha çox parlamentin və hökumətin formalaşmasını yubatmaqla məşğuldur. Belə ki, əvvəlcə yeni seçilmiş parlamentin ilk iclasının yanvarın 7-də baş tutacağı elan edilsə də, sonradan bu iclasın vaxtı hansısa əlamətdar gün bəhanə edilərək yanvarın 14-nə təyin edilib. Həmin gün Ermənistanın baş naziri seçiləcək və Nikol Paşinyana bir neçə gün ərzində yeni hökumətin tərkibini prezidentə təqdim etmək səlahiyyəti veriləcək.

Hazırda erməni KİV-də daha çox parlamentin rəhbərliyi barədə proqnozlar və məlumatlar yayılsa da, hökumətin tərkibində dəyişikliklərin baş verəcəyi və yeni simaların ortaya çıxacağı ehtimalları da özünə yer tapır. Məsələn, ən çox indiki hakimiyyətin dayağı hesab edilən Polis Xidmətinin rəisinin yeni hökumətdə yer almayacağı barədə informasiylar yayılıb. Hətta N. Paşinyanın bu xidmətin indiki rəisi vəzifəsini icra edən Valeri Osipyanın işindən narazı olması və buna görə sonuncunun istefaya göndəriləcəyi bildirilir. "News.am" saytının məlumatına görə, V.Osipyan bu xəbərləri təkzib etməsə də, özünün bu aylar ərzində işinin öhdəsindən gəldiyini qabardaraq yeni hökumətdə həmin vəzifəyə iddialı olduğunu göstərib: **"Mən bu barədə hələlik məlumatlandırılmamışam, amma qeyd edirəm ki, polis həmin aylarda yaxşı işləyib, mən bu fəaliyyəti müsbət qiymətləndirirəm. Söhbət mənim işimdən deyil, Polis Xidmətinin işindən gedir. İndiki məqamda bundan daha artıq heç nə deyə bilmərəm".**



Ümumiyyətlə götürəndə isə hazırda Ermənistan cəmiyyətində N.Paşinyanın özündən və komandasından razılıq əhval-ruhiyyəsi hökm sürmür. Çünki 9 dekabrda keçirilən parlament seçkilərindən sonra Ermənistanda bundan əvvəlki kriminal oliqarxiyanın və işğalçı xunta rejiminin hakimimiyyətinə son verilib. Yəni bundan sonra formalaşan hökumət artıq əhalinin haqlı tələbləri ilə üz-üzə qalacaq, ac-yalavac ermənilər N.Paşinyanın meydanlarda səsləndirdiyi populist bəyanatlar və boş vədlər doyuzdura bilməyəcək.

Buna görə də yerli ekspertlər də 14 yanvar tarixini işğalçı ölkədə keçid mərhələsinin başa çatdığı hədd kimi qiymətləndirirlər. Onların qənaətinə görə, 8 aylıq müddət ərzində cəmiyyət Paşinyan hökumətinin irili-xırdalı bütün uğursuzluqlarına göz yumub və artıq buna dözmək fikrində deyil. Üstəlik, bunlara yeniləri də əlavə oluna bilər. Məsələn "Aysor.am" saytı yazır ki, Respublikaçı Partiyasının mətbuat katibi Eduard Şarmazanov konkret olaraq cəmiyyətdə hər gün artmaqda olan narahatlıqların bəzi səbəbləri barədə danışıb. Onun sözlərinə görə, bu sıraya çox sayda ilkin tələbat mallarının qiymətlərinin qaldırılması, N.Paşinyanın Ermənistan-Rusiya münasibətlərinin yaxşılaşması barədə bəyanatına baxmayaraq, Rusiyadan satılan qazın qiymətlərinin artırılması daxildir.

Digər tərəfdən, əhali son səkkiz ay ərzində N.Paşinyandan aydın siyasi və iqtisadi mesajlar eşitməyib. Bunun əvəzində diletant baş nazir guya 2019-cu ildə "iqtisadi inqilab"ın baş verçəyini elan edərək onun perspektivləri barədə heç bir məlumat verməyib. Ermənistanın siyasi və iqtisadi sistemlərinin hansı tərkibdə olacağı da məlum deyil.

Ermənistan cəmiyyətində narazılıqların yaranmasına səbəb olan digər məsələ N.Paşinyanın hibrid hakimiyyətinin bir çox nazirləri və qubernatorlarının öz sahələrində gözlənilən uğurlara müvəffəq olmadıqları halda, artıq yeni hökumətdə mövqelərini saxlamaqda iddialı olmalarıdır.

Bir sözlə, müşahidəçilərin ümumi qənaətinə görə, N.Paşinyan üçün keçid dövrü 14 yanvarda başa çatır. Onun yürütdüyü siyasətdəki səhvlərin sayı-hesabı olmadığından bu şəxsi hakimiyyətə gətirənlər qarşısında güzəşt limiti artıq tükənib. Bundan sonra erməni cəmiyyəti N.Paşinyanın komandasından konkret nəticələrin olduğu iş tələb edəcək. Yəni, Paşinyanı çətin günlər gözləyir və hazırda vaxt onun xeyrinə işləmədiyi üçün hökuməti formalaşdırmağa da tələsmir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm addımlar atılır

## *Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramında ölkəmizə gələn turistlər bölgələrdə istirahət etməyə üstünlük verirlər*

(əvvəli ötən sayımızda)



### QUSAR RAYONUNDA YERLƏŞƏN “ŞAHDAĞ” TURİZM MƏRKƏZİ BAYRAM GÜNLƏRİNDƏ 10 MİNDƏN ÇOX TURİST QƏBUL EDİB

Yeniliklər sırasında bu yaxınlarda istifadəyə verilən gecə klubu da var. Turistlər xizək sürmənin yorğunluğunu burada əylənməklə çıxara bilərlər. Bu, eyni zamanda, xizək sürməyən qonaqlar üçün ideal əyləncə mərkəzidir. Gecə klubu 200 nəfərlik “Zona” və VİP bölmələrdən ibarətdir. Mükəmməl akustika və işıq effektləri ilə təchiz olunan klubda həmçinin Asiya mətbəxi, DJ və böyük rəqs meydanı mövcuddur.

“Şahdağ” Turizm Mərkəzinin əsas meydanında yerləşən “Qış bazarı” yarmarkasında turistlərə xüsusi üsulla hazırlanan içkilər, şirniyyatlar və Yeni il hədiyyələri təklif olunur. On yeddi evcikdən ibarət yarmarkada həm də yerli məhsulları əldə etmək olar. Bu mövsümdən etibarən turistlər ən çox sevilən ləziz burgerləri də Şahdağda dada biləcəklər. Yeni istifadəyə verilən Burger Mərkəzinin interyeri xüsusi zövqlə tərtib edilib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, Azərbaycanda turizmin inkişafını sürətləndirmək, ölkənin daxili turizm potensialını dünya bazarına çıxarmaq, habelə xarici turistlərin diqqətini səfalı guşələrimizə cəlb etmək məqsədilə dövlət tərəfindən bir sıra mühüm işlər həyata keçirilir.

**“Dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva turizm sektoruna böyük diqqətlə yanaşır. Turizmin inkişafı üçün mühüm qərarlar qəbul olunub ki, bunun da nəticəsi göz qabağındadır. “Şahdağ” Turizm Mərkəzinə gələn turistlərin sayı artmaqda davam edir. Qonaqların sayının daha da çox olması üçün mərkəzdə bir sıra böyük işlər görülür, turistlərə yeni xidmətlər və əyləncələr təklif olunur. Həm yerli, həm də xarici turistlərin mərkəz haqqında fikirləri çox müsbətdir. Bu, sevindirici haldır. Bundan sonrakı mərhələdə dövlətimizin başçısının müəyyənləşdirdiyi istiqamət üzrə tapşırıqları yerinə yetirib, Azərbaycanın turizm sektorunda daha çox nailiyyətlər qazanmasını təmin edəcəyik”,** - deyə Fuad Nağıyev bildirib.

Turistlərin çoxluğu nəzərə alınaraq bu il kompleksin girişində 720 yerlik yeni avtomobil parkı inşa olunub. Bundan başqa, yeni mövsümdən başlayaraq istirahət mərkəzinin daxilində xüsusi marşrut üzrə hərəkət edən avtobuslar qonaqların xidmətindədir.

Onu da qeyd edək ki, Qusar rayonunda yerləşən “Şahdağ” Turizm Mərkəzi bayram günlərində 10 mindən çox turist qəbul edib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə elan olunan qeyri-iş günlərində istirahət kompleksində dincələnlər arasında xeyli əcnəbi olsa da, qonaqların çoxu yerli turistlərdir. Bayram günlərində “Şahdağ” Turizm Mərkəzini ziyarət edən turistlərin əksəriyyəti xizək yollarından və kanatlardan istifadə edib. Təntənəli Yeni il şənlikləri, möhtəşəm atəşfəşanlıq, musiqi ziyafəti turistlərin zövqünü oxşayıb.

### BU İL YENİ İL BAYRAMI GÜNLƏRİNDƏ ŞƏKİYƏ GƏLƏN TURİSTLƏRİN SAYINDA ARTIM MÜŞAHİDƏ OLUNUB

Azərbaycanın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən olan Şəki ilin bütün fəsillərində turistləri özünə cəlb edir. Bayram tətili günlərində Şəki rayonu da turistlərin ən çox ziyarət etdikləri bölgələrimizdən olub. Hər il olduğu kimi, bu il də Yeni il bayramı günlərində Şəkiyə gələn turistlərin sayında artım müşahidə olunur. Turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biri “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisidir. Bu ərazidə yerləşən muzey və karvansaraylar, həmçinin XVIII əsrə aid dünya əhəmiyyətli nadir tarixi-memarlıq abidəsi Şəki xanlarının sarayı yerli və xarici turistlərin daha çox marağına səbəb olur. Qoruğun direktoru Təranə Abdullayeva turistlərə göstərilən xidmətlər barədə məlumat verib. Onun bildirdiyinə görə, tətil günlərində şəhərə turist axınını nəzərə alaraq, qoruğun ərazisindəki bütün muzeylərin, o cümlədən Şəki xanlarının sarayının qapıları səhər saatlarından axşam hava qaralanadək qonaqların üzünə açıq olur. Xarici turistlərin arasında Rusiyadan, keçmiş sovet respublikalarından, həmçinin ərəb ölkələrindən gələnlər üstünlük təşkil edirlər.

İrina Şitova rəfiqələri ilə birlikdə Azərbaycana Rusiyanın Nijni Novqorod şəhərindən qonaq gəlib. İxtisasca iqtisadçı olan rusiyalı turist Naftalan şəhərindəki müalicə sanatoriyalarının birində istirahət edir. Turist qrupu ilə birgə Şəkiyə ekskursiyaya gələn İrina deyib: **“Ölkənizə üçüncü dəfədir səfər edirəm. Bu il yaşadığım Nijni Novqorod şəhərindən Azərbaycana 20 nəfərədək turist gəlib. Mən özüm Şəkidə ikinci dəfədir oluram. Bu şəhər qədimliyi və möhtəşəm tarixi abidələri ilə, mətbəxi, dadlı halvası, günəşli və qarlı havası ilə məni özünə cəlb edir. Azərbaycanlılar çox qonaqpərvər, istiqanlı və səmimidirlər. Bizi hər yerdə çox mehriban qarşılayırlar. Gələcəkdə yenə də Azərbaycana, o cümlədən Şəkiyə gəlmək niyyətindəyəm”.**

Gəncədə fəaliyyət göstərən “EFES Travel” turizm şirkətinin nümayəndəsi Fərid Nəbiyev Naftalanda dincələn rusiyalı turistləri Şəkiyə ekskursiyaya gətirib. Şirkətin nümayəndəsi bildirib ki, “EFES Travel” xarici turizmlə yanaşı, ölkədaxili turların təşkili ilə də məşğul olur. Şirkətin əsas məqsədi yerli və xarici turistlərə Azərbaycanı daha yaxından tanıtmaq, təbliğ etmək və sevdirməkdir. Gəncə-Şəki-Qəbələ, Gəncə-Qax-Zaqatala-Balakən marşrutları üzrə təşkil edilən ekskursiyalar zamanı peşəkar bələdçilər tərəfindən turistlərə bu bölgənin tarixi məkanları, təbiəti, mədəniyyəti, görməli yerləri barədə ətraflı məlumat verilir. Ekskursiya iştirakçıları onlara göstərilən xidmətlərdən həmişə razılıq edirlər.

### QƏÇRƏŞİN QARLI MƏNZƏRƏSİNİ İZLƏMƏYƏ GƏLƏN İSRAİLLİ TURİSTLƏR AZƏRBAYCAN VƏ ONUN TƏBİƏTİ HAQQINDA YÜKSƏK FİKİRDƏDİRLƏR

Son illər istirahət üçün Qəçrəş meşəsini seçənlərin arasında da əcnəbi turistlərin sayı xeyli artıb. Qeyd edək ki, Qəçrəş kəndi Quba rayon mərkəzindən təxminən 10 kilometr məsafədə yerləşir. Bu kəndin girişindəki meşə zolağı ölkəmizdə məşhurdur. Turistlər həm yay aylarında, həm də qışda Qəçrəş meşəsinin mənzərəsini seyr etməkdən zövq alırlar. Qəçrəşin qarlı mənzərəsini izləməyə gələn israilli turistlər isə Azərbaycan və onun təbiəti haqqında yüksək fikirdədirlər. Zoya Memrayev İsrailin mərkəzi şəhərlərindən biri olan Or-Akiva şəhərindən gəlib. Azərbaycanda sonuncu dəfə 40 il əvvəl olduğunu deyən qonaq bildirib: **“Şəhərlər çox dəyişib, müasirləşib. Amma dəyişməyən bir şey var: insanların xoş rəftarı və mehriban münasibəti. Qubada hər tərəf ağ örpəyə bürünüb. Təmiz hava və gözəl mənzərə var. Qubadan sonra Bakıya gedəcəyik. Bu yerlər mənə çox doğmadır. Çünki özüm də əslən Dərbənd şəhərindənəm. Amma uzun illərdir İsraildə yaşayırıq”.**

Oleq Pisaxov isə Azərbaycanı yaxşı tanıdığından İsraildən gələn turistlərə bələdçilik edir. İndi İsraildə yaşasa da, Qubada doğulub boya-başa çatıb. **“Bura mənə çox doğma məkandır. Azərbaycana səyahət turları təşkil edirik. Hər ay Azərbaycana səfər edirik. Bu dəfə 30 nəfərlik qrupla gəlmişik. Turistlərin ən çox xoşuna gələn təbiət mənzərələridir. Bir həftəlik səfərimizdə Qubada, Şəkidə, Şamaxıda olmuşuq. Yay aylarında turlarımız on günlük olur”,** - deyə O.Pisaxov bildirib.

Dora Meirov adlı israilli turist də Azərbaycana səfərindən çox məmnun qalıb: **“Azərbaycan daha da gözəlləşib. Bakını, Azərbaycan dilini, yeməklərinizi çox bəyənirəm. İki gündür Qubadayıq. Qaldığımız hoteldə bizə yüksək səviyyədə xidmət göstərdilər. Qarı çox sevirəm. Bəxtimizdən Qəçrəş bu gün ağ örpəyə bürünüb. Buradan sonra Bakıya gedəcəyik. Ekskursiyamız daha dörd gün davam edəcək”.**

İstirahət üçün Qəçrəş meşələrinə üz tutan turistlər əsrarəngiz qış mənzərələrini seyr etməklə yanaşı, buradakı hotel və restoranların xidmətlərindən istifadə edirlər. Yerli sakinlər tərəfindən turistlərə atla gəzinti və dadlı göy qutabı da təklif olunur.

Vurğulandığı kimi, Quba-Xınalıq turizm marşrutu üzərində ən çox istirahət mərkəzləri də məhz Qəçrəş kəndi ərazisindədir. Rayon iqtisadiyyatının inkişafında bu mərkəzlərin böyük rolu var. Qəçrəş və ətraf ərazilərdə dincəlmək üçün münasib qiymətə turizm obyekti tapmaq mümkündür.

### YERLİ VƏ XARİCİ TURİSTLƏR QARLI DAĞLARDA MOTORLU XİZƏKLƏRLƏ, KANATLA GƏZMƏK VƏ BUZ ÜSTÜNDƏ XİZƏKLƏ SÜRÜŞMƏK KİMİ ARZULARINI QƏBƏLƏDƏ GERÇƏKLƏŞDİRİBLƏR

Ölkəmizin görməli və gəzməli yerlərindən olan Qəbələ rayonu da turistlərin sevimli istirahət məkanlarından biridir. Qeyd edək ki, Qəbələ rayonu coğrafi quruluşu və müasir turizm infrastrukturuna görə isti yay fəsli ilə yanaşı, soyuq qış aylarında da turistləri özünə cəlb edir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tətilində rayonun turizm məkanlarına üz tutan yerli və xarici turistlər qarlı dağlarda motorlu xizəklərlə, kanatla gəzmək və buz üstündə xizəklə sürüşmək kimi arzularını Qəbələdə gerçəkləşdiriblər. Rayonda əsl bayram ab-havası yaşanıb. Bütün hotellərdə, istirahət və əyləncə mərkəzlərində turistlərə xüsusi hazırlanmış əyləncəli şou proqramlar təqdim olunub. Qonaqların istirahətinin şən və mənalı təşkili üçün hotellərdə, “Qəbələnd” istirahət və əyləncə mərkəzində yüksək səviyyədə şərait yaradılıb, tanınmış musiqiçilərin iştirakı ilə konsertlər, müxtəlif əyləncəli tədbirlər keçirilib.

Yerli və xarici turistlər Qəbələnin zəngin tarixi, müasir şəhərsalma mədəniyyəti və ləziz mətbəxi ilə yaxından tanış olublar. Qəbələyə üz tutan yerli və xarici turistlər təkcə rayon mərkəzini gəzməklə kifayətlənməyib, dağlıq ərazilərdə yerləşən kəndlərin mənzərəli guşələrinə də səyahət ediblər. Bayram günlərində rayonda dincəlməyə üstünlük verən xarici turistlər arasında MDB, Avropa və ərəb ölkələrindən olanlar da var.

**Pərviz SADAYOĞLU**

# Dövlət Statistika Komitəsi: Ölkə üzrə pambıq tədarükü 232 min tonu ötüb



Pambıq qəbulu məntəqələrinə ölkə üzrə 232 min 231 ton məhsul təhvil verilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur.

Respublika üzrə ən çox pambıq Saatlı (15 min 815 hektar), İmişli (13 min 645 hektar), Sabirabad (13 min 55 hektar), Biləsuvar (12 min hektar), Ağcabədi (10 min hektar), Bərdə (9 min 630 hektar) və Beyləqan (9 min 560 hektar) rayonlarında əkilib. Pambıq əkinlərinin 2/3 hissəsi bu rayonların payına düşür.

Qeyd edək ki, dövlət emal müəssisələrinə təhvil verilmiş pambığın hər kiloqramına görə fermerə 10 qəpik subsidiya verir. Həmçinin pambıq əkən fermerlərin məhsul istehsalına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2018-ci ilin məhsulu üçün 1-ci növün qiyməti 600-dən 650 manata, 2-ci növün 580-dən 630 manata, 3-cü növün 540-dan 590 manata, 4-cü növün 500-dən 550 manatadək artırılıb.

Prezident İlham Əliyevin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”nda xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur.

# MİDA güzəştli mənzil almaq istəyənlərə müraciət edib




Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən istifadəçilərin mənzil seçimi prosesində rahatlığını təmin etmək məqsədilə “Güzəştli mənzil” sistemində bir sıra təkmilləşdirmə (satışın başlanmasına 24 saat qalmış geri sayımın aktivləşməsi, səhifənin açılması və səhifədən-səhifəyə keçid haqqında məlumatın ekranda görünməsi) işləri aparılıb.

Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, mənzil seçimi prosesinin bütün mərhələləri ilə yaxından tanış olmaq, “Elektron İmza” və ya “Asan İmza” sertifikatlarından və texniki avadanlıqlardan istifadə bacarıqlarını təkmilləşdirmək istəyənlər yanvarın 12-si saat 15:00-dan saat 15:30-dək keçiriləcək sistemin sınaq mühitində mənzil seçimi edə bilərlər.

Mənzil seçimində bütün əməliyyatlar “Elektron hökumət” portalı üzərindən real vaxt rejimində aparılır və mənzil seçimi prosesi yanvarın 25-də Yasamal Yaşayış Kompleksində keçiriləcək 174 mənzilin seçimi ilə identikdir.

# Ötən il yeni doğulan oğlan uşaqlarına ən çox Yusif adı qoyulub

Ötən il Azərbaycanda yeni doğulan uşaqlara qoyulan adların statistikası müəyyənləşib.

AZƏRTAC Ədliyyə Nazirliyinin saytına istinadla xəbər verir ki, 2018-ci ildə doğulan oğlan uşaqlarına ən çox Yusif adı qoyulub. Bu ad il ərzində 2505 uşağa verilib. Statistikaya əsasən, oğlan adlarında sonrakı yerləri Əli (2129), Hüseyn (1929), Uğur (1597), Ömər (1569), Məhəmməd (1381), Murad (1337), Ayxan (1086), Tunar (965), İbrahim (802) tutur.

Ötən il qız uşaqlarına ən çox Zəhra adı verilib (2515). Qız uşaqlarına ən çox qoyulan digər adlar Nuray (1700), Aylin (1610), Zeynəb (1604), Məryəm (1595), Fatimə (1408), Mələk (1347), İnci (1227), Dəniz (1094), Mədinədir (1011).

Son beş il ərzində də oğlan və qız uşaqlarına ən çox müvafiq olaraq, Yusif və Zəhra adları verilib. Beş il ərzində 12 min 394 uşağa Yusif, 11 min 810 qız uşağına isə Zəhra adı qoyulub.

Adlar

| Ad | 2014 | 2015 | 2016 | 2017 | 2018 | Son 5 il üzrə |
|---|---|---|---|---|---|---|
| YUSİF | 4776 | 3555 | 3398 | 2936 | 2505 | 12394 |
| ZƏHRA | 4424 | 3512 | 3008 | 2775 | 2515 | 11810 |
| ƏLİ | 3065 | 2472 | 2197 | 2186 | 2129 | 8984 |
| HÜSEYN | 3204 | 2533 | 2363 | 2010 | 1929 | 8835 |
| NURAY | 2970 | 2474 | 2176 | 2135 | 1700 | 8485 |
| FATİMƏ | 3070 | 2303 | 1910 | 1548 | 1408 | 7169 |
| ZEYNƏB | 2027 | 1746 | 1863 | 1667 | 1604 | 6880 |
| ÖMƏR | 1889 | 1672 | 1752 | 1628 | 1569 | 6621 |
| AYLİN | 2117 | 1773 | 1667 | 1562 | 1610 | 6612 |
| MƏRYƏM | 1416 | 1469 | 1576 | 1690 | 1595 | 6330 |
| MƏHƏMMƏD | 1771 | 1492 | 1438 | 1479 | 1381 | 5790 |

1 2 3 4 5 6 7 8

Qeyd edək ki, il ərzində yeni doğulan uşaqlara verilən adlarla bağlı məlumat Ədliyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlər sırasında “Azərbaycan adları barədə məlumat” bölməsində yerləşdirilib. Vətəndaşlar bu elektron xidmətdən istifadə edərək yeni doğulmuş uşaqlara ad verərkən həmin adın mənası, onunla bağlı statistik məlumat əldə edə bilərlər. Ədliyyə Nazirliyinin elektron xidmətlərindən qurumun rəsmi internet saytı (www.exidmet.justice.gov.az) və ya “Elektron hökumət” portalı vasitəsilə yararlanmaq mümkündür.

# 2018-ci il ərzində “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə 3581 müraciət daxil olub




2010-cu ildə “Azercell Telekom” MMC-nin dəstəyi ilə uşaqların müdafiəsi və hüquqlarının qorunması üçün yaradılan “Uşaq Qaynar Xətt” xidməti ötən ilin yekunları ilə bağlı hesabatını açıqlayıb. Qeyd edək ki, 2018-ci il ərzində quruma 3581 müraciət daxil olub. Onlardan 1909-u təhsil, 426-sı psixoloji, 235-i sosial, 497-si hüquqi, 177-si səhiyyə, 337-si isə digər sahələrdə yaranan sualları əhatə edib. Daxil olan müraciətlərin 1432-si şəhərdaxili, 1995-i mobil telefon, 54-ü isə mobil sms-lə qeydə alınıb.

Zənglər üzrə aparılan təhlillərdən çıxan nəticələrə əsasən uşaqlarda baş verən narahatlıqların, psixoloji problemlərin əsas səbəbi valideynlərin bu istiqamətdə maariflənməsinin zəif olmasıdır. Xüsusilə də uşaqların məktəb həyatının başladığı dövrlərdə onlarda izlənilən həyəcan, özünəqapanıqlıq, qorxu, aqressiya valideynlər tərəfindən böyük narahatlıq və təlaşla qarşılanır, uşaqlara qarşı məhz bu səbəbdən kobud davranılır. Eyni zamanda, müraciət edənlər arasında şəxsiyyətlərarası konfliktlərdən əziyyət çəkən yeniyetmələr də üstünlük təşkil edir. Problemin səbəbi isə uşaqların valideyn və yaşıdları ilə münasibətdə yaşadıqları fikir ayrılıqları və buna qarşı özünümüdafiə mexanizmi kimi istifadə etdikləri aqressiya görünür.

Qeyd edək ki, “Uşaq Qaynar Xətt” xidmətinin əsas iş prinsipi - məxfilikdir. “Uşaq Qaynar Xətti” xidmətinə daxil olan bütün məlumat məxfi saxlanılır.

“Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinin əsas məqsədi problemlə üzləşmiş hər bir uşağa sosial xidmət, psixoloji və hüquqi yardım, emosional dəstək, onun qarşılaşdığı çətinliklərin həllinə dair məsləhətlər vermək, ehtiyac olduğu zaman müraciətlərin digər müvafiq xidmətlərə yönləndirilməsini təmin etmək və təxirəsalınmaz kömək göstərməkdir.

Təklif edilən xidmət dövlət uşaq müəssisələrində olan, küçədə yaşayan və işləyən, istismara və zorakılığa məruz qalan, psixoloji və emosional problemlərlə üzləşən, fiziki və əqli imkanları məhdud olan, habelə sosial çətinliklər yaşayan ailələrdən olan, hüquqları pozulmuş, qanunla münaqişədə olan, xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan hər bir uşağın probleminin həll edilməsi üçün nəzərdə tutulub. Onu da qeyd edək ki, fəaliyyət göstərdiyi 8 il ərzində “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə 36 289 müraciət daxil olub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**“AZƏRTAC”, “Azadinform”, “SİA”**
**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU